Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

26-27 İYUN 2019-cu il

№ 111 (4009)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCAN BMT FORUMUNDA ASAN AŞSOSİASİYASININ YARADILMASI TƏŞƏBBÜSÜ İLƏ ÇIXIŞ ETDİ...

■ səh. 3 ■

Prezident İlham Əliyev Ramil Usubovun səriştə və təcrübəsinə böyük etimad etdiyini növbəti dəfə dilə gətirdi

■ səh. 2 ■

Birinci vitse-prezident BMT Forumunda ASAN-ın unikal mahiyyətinə aid bu elementi də göstərdi - dövlət qurumları ilə özəl şirkətlər birləşib...

■ səh. 3 ■

Türkiyədə, İranda və Gürcüstanda vəziyyət, Rusiyanın regional qoşunları hazır vəziyyətə gətirildi, Paşinyan Təhlükəsizlik Şurasını topladı...

■ səh. 6 ■

Qondarma "DQR"i tanıtmaq üçün qurulan idman, mədəniyyət tədbirləri dalbadal iflasa uğrayır

■ səh. 7 ■

Rövnəq Abdullayevin Ukrayna Prezidenti yanında yeni vəzifəsinin Azərbaycana nə faydası...

■ səh. 10 ■

Son islahat paketləri Azərbaycanı kəskin sosial təbəqələşmədən qorumaqda da təsirli rol oynayır...

■ səh. 10 ■

Şəmkirdə ehsan əvəzinə küçələri təmir etdirənə necə baxdılar...

■ səh. 15 ■

Çimərliklərə və akvaparklara giriş xeyli bahalaşdırıldı...

■ səh. 15 ■



■ səh. 9 ■

## Ermənistan Qarabağ tənzimlənməsini müharibə həddinə gətirməyin əsl şokunu indi yaşamağa başlayır - Gürcüstan hadisələri fonunda...





Dünya elitası xalqa dövlət xidmətlərinin Azərbaycan təcrübəsi barədə yetərli məlumatlandırıldı...

■ səh. 4 ■

Paşinyan Putini saymadı - Kremlin Ermənistanda qəti hərəkəti üçün əsaslar kifayətdir

■ səh. 8 ■

Azərbaycan dünya neft qiymətinin sabit qalması üçün ən optimal qərarını verdi - mövqeyimiz örnəyə çevrilir...

■ səh. 5 ■

■ səh. 4 ■

BMT Forumu Azərbaycanın ASAN, ABAD modellərinin dünyəvi yayılmasında güclü rol oynaya bilər



■ səh. 6 ■

Venesiya Komissiyası Ermənistanda demokratiya adı altında məhkəmə "islahatlarına" hələ susur...



■ səh. 12 ■

Azərbaycanda minimum pensiya MDB-də ikinci səviyyəyə yüksəldi...



■ səh. 12 ■

Azərbaycanda internetin sürətsizliyi - Problemin ABŞ-İran gərginliyi ilə bağlılığı varmı...



■ səh. 14 ■

Təhsil Nazirliyinin yeni layihəsi - dərslik müzakirəsinə ictimaiyyəti qoşmağın ən işlək üsulları...



## Zakir Həsənov göstəriş verdi - təmas xəttində əməliyyat şəraiti ciddi nəzarətdə saxlanmalıdır

**Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib. Silahlı Qüvvələr Günü münasibətilə öz təbriklərini müşavirə iştirakçılarına çatdıran Müdafiə naziri hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin imzaladığı sərəncamın Ordumuzun bütün şəxsi heyəti tərəfindən dərin minnətdarlıq hissi və böyük ruh yüksəkliyi ilə qarşılandığını xüsusi qeyd edib.**



Nazir dövlətimizin bu sahədə gördüyü işlərin davamlı olacağından əminliyini ifadə edib.

Müdafiə naziri qoşunların təmas xəttində əməliyyat şəraitinin ciddi nəzarətdə saxlanması, şəxsi heyətin sayıqlığının artırılması və təhlükəsizliyinin təmin edilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi barədə vəzifəli şəxslər qarşısında tapşırıq qoyub.

Nazir, həmçinin, hava şəraitini nəzərə alaraq, şəxsi heyət arasında istilik və günvurma hallarının qarşısının alınması, onların sağlamlığına diqqətin artırılması və hərbi hissələrdə yanğın təhlükəsizliyi tədbirlərinin görülməsi barədə də göstəriş verib.

## Gürcüstan Putinin təyyarə uçuşlarına qadağasına "kontr" tapdı

**Gürcüstanın Mehmanxana və Restoranlar Assosiasiyası rusiyalı turistlərin Bakı, İrəvan və Trabzon aeroportlarından Gürcüstanın şəhər və kurortlarına çatdırılması üçün pulsuz avtobusların istifadəyə verilməsi təklifini irəli sürüb.**



Baki-xeber.com İnterfax-a istinadən xəbər verir ki, bu barədə Assosiasiya rəhbəri Şalva Alaverdaşvili açıqlama verib.

"Bizim əsas vəzifələrimizdən biri əcnəbi turistlərin ölkəyə, xüsusilə Qara dəniz regionuna gəlməsini asanlaşdırmaqdır. Biz rusiyalı turistlərin Bakı, İrəvan və Trabzon aeroportlarından Gürcüstana çatdırılması üçün pulsuz avtobusların istifadəyə verilməsini təklif edirik", - deyə o, Birinci kanalın efirində bildirib.

Ş.Alaverdaşvili vurğulayıb ki, müzakirələrə Gürcüstanın İqtisadiyyat və Xarici İşlər nazirlikləri də qoşulacaq.

## Robert Köçəryanı yenidən dama basdılar



**Ermənistan Apelyasiya məhkəməsi ölkənin sabiq prezidenti Robert Köçəryanın həbs edilməsi barədə hökm verib.**

"Trend"in erməni KİV-inə istinadən məlumatına görə, məhkəmə onun barəsində çıxarılmış, lakin sonradan ləğv ediliş həbs qərarını bərpa edib.

Eyni zamanda, Apelyasiya məhkəməsi işi yenidən baxılması üçün əvvəlki instansiya məhkəməsinə göndərib.

Qeyd edək ki, R.Köçəryan 2008-ci ildə baş vermiş hadisələrlə əlaqədar konstitusiya quruluşunun devrilməsində ittiham olunur.

# Prezident İlham Əliyev Ramil Usubovun səriştə və təcrübəsinə böyük etimad etdiyini növbəti dəfə dilə gətirdi

**Prezident İlham Əliyev iyunun 25-də Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul edib.**



Dövlət başçısı Ramil Usubovun uzun illər Daxili işlər naziri vəzifəsini uğurla icra etdiyini bildirdi. Bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunduğunu vurğulayan Prezident İlham Əliyev ölkə qarşısında duran vəzifələrin lazimi səviyyədə icrası üçün təhlükəsizlik tədbirlərinin daim gündəlikdə olmasının önəmini qeyd edib. Prezident İlham Əliyev Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə edib və ona fəaliyyətində uğurlar arzulayıb.

Ramil Usubov ona etimad göstərib Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifəyə təyin edilməsi ilə əlaqədar dövlət başçısına minnətdarlıq edib. Bildirib ki, Daxili işlər naziri vəzifəsində çalışdığı uzun illər ərzində rəhbərlik etdiyi nazirlik öz fəaliyyətində ümummilli lider Heydər Əliyevin, sonrakı dövrlərdə isə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını daim hiss edib. Ramil Usubov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitliyin, əminamanlığın təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin böyük əhəmiyyət daşıdığını xüsusi vurğulayıb, Təhlükəsizlik Şurasının katibi vəzifəsində ona göstərilən yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməcəyini bildirib.

# İrandan ABŞ-ın Xamneyi və Zərifə sanksiya qərarına sərt reaksiya gəldi - "Diplomatik kanallar sonsuzadək qapandı"...

**ABŞ-ın İran dini lideri Xamneyi və xarici işlər naziri Cavad Zərifə qarşı sanksiyaları diplomatik kanalların sonsuzadək bağlanması mənasına gəlir.**



Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü Abbas Musəvi deyib. "Trampın ümidsiz rəhbərliyi dünyada sülh və təhlükəsizliyi təmin etmək üçün qurulan beynəlxalq mexanizmləri məhv edir" - Musəvi bildirib.

Qeyd edək ki, ABŞ İrana yeni sanksiya tətbiq edib. Sanksiya tətbiq edilənlər arasında İranın Ali dini lideri Ayətullah Xamneyi də var. Bu barədə açıqlama verən ABŞ prezidenti Donald Tramp ABŞ-a aid PUA-nın vurulmasının ardından sözügedən sanksiyaların qaçılmaz olduğunu deyib.

"Bir çox şəxslə birlikdə İran liderini də hədəf alan çox güclü sanksiyalar gətirən qərarı imzaladım. Bugünkü addımımız, PUA-mızın vurulması da daxil olmaqla, son günlər İran rejiminin davranışlarının nəticəsidir" - ABŞ Prezidenti deyib. Tramp İranın fəaliyyətindəki əsas məsuliyyətin İran lideri Xamneyiyə aid olduğunu və buna görə də sözügedən sanksiyaların onu da əhatə etdiyini bildirib. "İranla və ya başqa bir ölkə ilə qarşıdurma yaratmaq istəmirik, amma bunu deyə bilərəm ki, İranın nüvə silahına sahib olmasına icazə verməyəcəyik" - deyən Tramp, Xamneyidən əlavə, İran İslam İnqilabı Keşikçiləri Korpusunun yüksək rütbəli rəsmilərinin də sanksiya siyahısına salındığını açıqlayıb.

Trampın açıqlamasından sonra media qarşısına çıxan ABŞ Maliyyə naziri Steven Mnuçin İran xarici işlər naziri Cavad Zərifin də sanksiya siyahısına salınacağını deyib.

Onun sözlərinə görə, Cavad Zərif bu həftə ərzində ABŞ tərəfindən sanksiya siyahısına salınacaq.



# İran ticarət əməliyyatlarında dollardan imtina ilə bağlı Azərbaycanla saziş bağlamaq niyyətindədir

**İran bir sıra ölkələrlə, xüsusilə Rusiya, Türkiyə və Çinlə ikitərəfli maliyyə sazişlərinin bağlanmasına dair müzakirələr aparır.**

Baki-xeber.com xəbər verir ki, bunu İranın xarici işlər naziri Cavad Zərif deyib.

"Biz Türkiyə, Rusiya, Çin, Azərbaycan, Hindistan və digər ölkələrlə maliyyə sazişlərinin imzalanmasına dair danışıqlar aparırıq. Bu ölkələrdən bəziləri ilə sazişlər artıq bağlanıb, digərləri ilə isə razılaşmalar, demək olar ki, əldə olunub", - deyə o qeyd edib.

Məlumata görə, bu sazişlər ticarət əməliyyatlarında ABŞ dollarından imtina edilməsinə yönəlib.

**Azərbaycan bilavasitə bu forumun nəticəsi olaraq Dövlət Xidmətlərinin Təchizi üzrə Müəssisələrin ASAN Assosiasiyasının yaradılması təşəbbüsünü irəli sürmüşdür. Ümid edirəm ki, bu yeni assosiasiya dövlət xidmətlərinin səmərəli təchizi üçün ekspertlər arasında dialoqu təşviq etmək məqsədi daşıyan əhəmiyyətli beynəlxalq bir alətə çevriləcək.**

# Azərbaycan BMT Forumunda ASAN Assosiasiyasının yaradılması təşəbbüsü ilə çıxış etdi...



## *Məhərrəm Zülfüqarlı: "ASAN Assosiasiyasının yaradılması bir sıra ölkələrin bu təcrübədən yararlanmasına kömək edəcək"*

Bu, sözügedən sahədə bütün mövcud yaxşı təcrübələrdən istifadə etmək istəyində olanlara yardım edə bilər". Bunu Bakıda BMT-nin Dövlət Xidmətləri Forumunun açılışında çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva deyib.

Ölkənin Birinci vitse-prezidenti vurğulayıb ki, bu ilin əvvəlində birinci bənzər mərkəz Kabildə açılıb və Əfqanıstandan olan 100-dən çox ekspertə ASAN tərəfindən təlim keçirilib. O, yaxşı təcrübələrimizi başqa ölkələrlə paylaşmağı davam etdirməyə hazır olduğumuzu bildirib. Bu günədək ASAN-la müxtəlif ölkələr və beynəlxalq təşkilatlar arasında 10 anlaşma memorandumunun imzalandığını vurğulayıb. M.Əliyeva onu da qeyd edib ki, biz bununla kifayətlənmirik və dövlət xidmətlərinin keyfiyyətini təkmilləşdirməyə davam edirik.

Bütün bu deyilənlərin fonunda Azərbaycanın ASAN Assosiasiyasının yaradılması təşəbbüsü ilə çıxış etməsi ölkəmizə nə verər? Bunun əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, Azərbaycanın sözügedən təşəbbüslə çıxış etməsi ölkəyə bir sıra üstünlüklər vəd edir:** "Reallıq ondan ibarətdir ki, "ASAN xidmət" brendi çox böyük üstünlüklərə malikdir. Əhalinin böyük hissəsi bundan razıdır. Hətta müxalifət liderləri də bu xidmət barədə müsbət danışırlar. Bununla belə, bir sıra dünya dövlətləri də buna maraq göstərir və öyrənmək istəyirlər. Yəni beynəlxalq aləmdə "ASAN xidmət"in müsbət imicinin formalaşması Azərbaycanın xeyrinədir. BMT-nin sözügedən tədbirinin ölkəmizdə keçirilməsi müsbət haldır. Azərbaycan dövlətçiliyi üçün bu cür xidmətlərin sayını artırmaq lazımdır. Hesab edirəm ki, ASAN Assosiasiyasının yaradılması bir sıra ölkələrin bu təcrübədən yararlanmasına kömək edəcək. Tək keçmiş sovet məkanı yox, hətta inkişaf etmiş ölkələr də "ASAN xidmət"in təcrübəsindən bəhrələnirlər.

*"Sözügedən təşəbbüsün ortaya qoyulması ölkənin beynəlxalq imicinin daha da yüksəlməsinə xidmət edəcək"*

**Çünki bu, Azərbaycan brendidir. Sözügedən təşəbbüsün ortaya qoyulması Azərbaycanın beynəlxalq imicinin daha da yüksəlməsinə xidmət edəcək. Ona görə də hörmətli Mehriban xanımın bu təşəbbüslə çıxış etməsini alqışlayıram. Fikrimcə, bu, ölkəmiz üçün, xüsusən də Azərbaycanın beynəlxalq imici üçün faydalı olacaq".**

***Vidadi ORDAHALLI***

**12 müxtəlif dövlət qurumu və bir qrup özəl şirkətlər bir bina daxilində "ASAN xidmət"də təmsil olunurlar". Bu fikirləri Bakıda BMT-nin Dövlət Xidmətləri Forumunun açılışında çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva səsləndirib.**

# Birinci vitse-prezident BMT Forumunda ASAN-ın unikal mahiyyətinə aid bu elementi də göstərdi - dövlət qurumları ilə özəl şirkətlər birləşib...




## *Rəsul Cahangirli: "Bu onu göstərir ki, Azərbaycan vətəndaşlara xidmət sahəsində çox unikal və səmərəli bir model ortaya qoyub"*

Birinci vitse-prezidentin sözlərinə görə, 2013-cü ildən etibarən ASAN mərkəzlərində ölkə üzrə 30 milyondan artıq ərizəyə baxılıb: "Bu gün həmin mərkəzlərdə 320 dövlət və özəl xidmət göstərilir.

12 müxtəlif dövlət qurumu və bir qrup özəl şirkətlər bir bina daxilində "ASAN xidmət"də təmsil olunurlar. Çox qısa müddət ərzində "ASAN xidmət" dövlətlə vətəndaş arasında münasibətlərdə mərkəzi yeri tutdu".

Mehriban xanımın fikrincə, sözügedən xidmətin yaradılmasının əsas hədəf və məqsədi yeni xidmətlərin insanlara yönəlməsi və vətəndaşların keçmişdə üzləşdiyi çətinliklərin aradan qaldırılmasından, dövlət xidmətlərini insanlar üçün əlçatan, rahat, asan və səmərəli etməkdən ibarətdir. "Vahid pəncərə" prinsipi əsasında dövlət xidmətlərinin göstərilməsi ideyasının bu cür ərsəyə gəldiyini qeyd edən Mehriban Əliyeva ASAN adının Azərbaycan dilində, mənaca, həmçinin, "asan" olduğunu vurğulayıb: "ASAN xidmət" Azərbaycan Prezidentinin təşəbbüsü ilə genişmiqyaslı dövlət idarəçiliyi islahatlarının bir hissəsi kimi 2012-ci ildə təsis edildi. Xalq isə dərhal bu islahatları alqışladı. "ASAN xidmət" Bakıda kiçik pilot layihə ilə fəaliyyətə başladı. Həmin vaxt xalqın tələbatlarına şəffaf, əlçatan, səmərəli və rahat şəkildə cavab vermək məqsədilə bir neçə dövlət xidmətləri göstərən qurum bir binaya toplaşdı. ASAN dərhal əhali arasında o qədər populyarlaşdı ki, biz bu uğurun davamı olaraq, göstərilən xidmətlərin sayını və növünü çoxaltmaq fikrinə gəldik və "ASAN xidmət" Azərbaycan rayonlarında da açılmağa başlandı".

Burada önəmli məqamlardan biri ondan ibarətdir ki, dövlət qurumları ilə özəl şirkətlər birgə fəaliyyət çərçivəsində xalqa xidmət göstərirlər. Bunun təşkili mexanizminin "ASAN xidmət" timsalında ortaya qoyulması çox unikal hadisədir. Hansı ki, məhz Azərbaycan bunu yarada bilib.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Mehriban xanımın bununla bağlı qeyd etdiyi fikirlər çox əhəmiyyətə malikdir: "Bu onu göstərir ki, Azərbaycan vətəndaşlara xidmət sahəsində çox unikal və səmərəli bir model ortaya qoyub. Hansı ki, dünyanın heç bir ölkəsində dövlət qurumları ilə özəl şirkətlər arasında belə uğurlu kombinasiya qurulmayıb. Düzdür, xüsusən inkişaf etmiş ölkələrdə bir sıra mütərəqqi idarəetmə metodları tətbiq edilir. Ancaq fikrimcə, onların heç biri "ASAN xidmət" qədər funksional və çoxşaxəli xidməti özündə ehtiva etmir. Bunun təşkili mexanizminin yaradılaraq ortaya qoyulması həqiqətən də Azərbaycanın böyük uğurudur.

*"Bunun təşkili mexanizminin yaradılaraq ortaya qoyulması həqiqətən də ölkəmizin böyük uğurudur"*

**Özəl şirkətlərin bu yöndə fəaliyyəti hansısa podratçı mahiyyətə malik deyil. Bu, sırf mükəmməl idarəçiliyi özündə ehtiva edir. Hesab edirəm ki, Azərbaycanın bununla bağlı əldə etdiyi nailiyyət dünya ölkələri üçün böyük bir nümunə olacaq.**

Heç şübhə etmirəm ki, yaxın perspektivdə daha çox ölkə bundan faydalanmağa, bu modeli tətbiq etməyə səy göstərəcək".

***Vidadi ORDAHALLI***

Bakıda BMT-nin Dövlət Xidmətləri Forumunun açılışında çıxış edən Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanın dövlət xidmətləri sahəsində əldə etdiyi nailiyyətlər və onların necə təkmilləşdirilməsi ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib:

# Dünya elitası xalqa dövlət xidmətlərinin Azərbaycan təcrübəsi barədə yetərli məlumatlandırıldı...




"Sizin hamınızı Azərbaycanda salamlamaqdan məmnunam. Şərqi Avropa regionunda ilk dəfə təşkil olunan BMT-nin Dövlət Xidmətləri Forumunu keçirməkdən şərəf hissi duyuruq. Bu tədbiri paytaxtımızda keçirmək qərarına görə BMT-yə təşəkkürümüzü bildiririk. Biz bunu Azərbaycanın dövlət xidmətləri sahəsində əldə etdiyi nailiyyətlərin dəyərləndirilməsi hesab edirik. Bu il keçirilən tədbirin mövzusu bütün xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Bu, dünyanın müxtəlif yerlərindən gəlmiş, qərar qəbul edən yüksək rütbəli şəxslər üçün təcrübələrini bölüşmək, çağırışları müzakirə etmək və BMT-nin 2030-cu il gündəliyinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün faydalı platformadır. Bu prosesdə dövlət qurumlarının xalqımıza yüksək keyfiyyətli xidmətlər göstərmək və innovativ dəyişikliklərdə iştirak etmək bacarığı xüsusi rol oynayır. Bu baxımdan, mən fürsətdən istifadə edərək, bu gün sizinlə səmərəli dövlət qulluğu sistemi sahəsində Azərbaycanın uğurları ilə bölüşmək istərdim".

Azərbaycanın Birinci vitse-prezidenti vurğulayıb ki, əsas hədəf və məqsəd yeni xidmətlərin insanlara yönəlmək və vətəndaşların keçmişdə üzləşdiyi çətinliklərin aradan qaldırılmasından, dövlət xidmətlərini insanlar üçün əlçatan, rahat, asan və səmərəli etməkdən ibarətdir. "Vahid pəncərə" prinsipi əsasında dövlət xidmətlərinin göstərilməsi ideyasının bu cür ərsəyə gəldiyini qeyd edən Mehriban Əliyeva ASAN adının Azərbaycan dilində, mənaca, həmçinin, "asan" olduğunu vurğulayaraq deyib: "ASAN xidmət" Azərbaycan Prezidentinin təşəbbüsü ilə genişmiqyaslı dövlət idarəçiliyi islahatlarının bir hissəsi kimi 2012-ci ildə təsis edildi. Xalq isə dərhal bu islahatları alqışladı. "ASAN xidmət" Bakıda kiçik pilot layihə ilə fəaliyyətə başladı. Həmin vaxt xalqın tələbatlarına şəffaf, əlçatan, səmərəli və rahat şəkildə cavab vermək məqsədilə bir neçə dövlət xidmətləri göstərən qurum bir binaya topladı. ASAN dərhal əhali arasında o qədər populyarlaşdı ki, biz bu uğurun davamı olaraq, göstərilən xidmətlərin sayını və növünü çoxaltmaq fikrinə gəldik və "ASAN xidmət" Azərbaycanın rayonlarında da açılmağa başlandı".

Bu baxımdan maraqlıdır, Mehriban Əliyeva ölkəmizin dövlət xidmətləri sahəsində əldə etdiyi nailiyyətləri və onların necə təkmilləşdirilməsi ilə bağlı məlumatı beynəlxalq tədbir iştirakçılarına necə təqdim edə bildi?

Politoloq Yeganə Hacıyevanın sözlərinə görə, Azərbaycan müstəqillik əldə etdikdən sonra ciddi inkişaf yolu keçib: "Amma bir çoxları, xüsusilə də bizi istəməyənlər bu nailiyyətləri neft amili ilə bağlamağa çalışırlar. Onlar belə təqdim etmək istəyirlər ki, biz həmin inkişafa yalnız neftimizi satıb, maddi gəlir əldə edərək nail omuşuq. Bəzi layihələrin icrası, həyata keçirilməsi göstərdi ki, biz intellektimizlə də çox şeylərə nail olmağı bacaran xalqıq. Bunlardan ən mükəmməli "ASAN xidmət" brendidir. Bu gün "ASAN xidmət" modeli dünya miqyasında tanınmış Azərbaycan brendi kimi səciyyələndirilir. Bu sistem hazırda bir çox ölkələr tərəfindən öyrənilir və tətbiq olunur. "ASAN xidmət"in yaradılması bir çox vətəndaşın əlavə xərclərinin azalmasına, peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, şəffaflığın artırılmasına və bəzi dövlət qurumlarında korrupsiya probleminin həllinə böyük töhfələr verib. Ümumiyyətlə, "ASAN xidmət" modeli sübut edib ki, korrupsiyanın qarşısını almaq və bu sahədə institusional islahatların səmərəliliyini artırmaq mümkündür. 2015-ci ildə dövlət xidmətlərinin sadələşdirilməsinə, təkmilləşməyə verdiyi töhfəsinə və yaradıcı olmağına görə "ASAN xidmət" Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülüb. Bu gün Azərbaycan brendi olan "ASAN xidmət" modelindən dünyada 10 milyonlarla insan yararlanır. Bir çox ölkə başçıları ölkəmizə gələndə, bu təcrübənin özlərində tətbiqində maraqlı olduğunu deyirlər.

Təbii ki, bizim bu nailiyyətimizin təbliği, dünyaya düzgün çatdırılması önəmlidir. Bu baxımdan hesab edirəm ki, Mehriban xanım Əliyeva Bakıdakı mötəbər tədbirdə bunun öhdəsindən bir daha layiqli şəkildə gələ bildi. Yalnız "ASAN xidmət" deyil, eyni zamnda, digər nailiyyətləri də tədbir iştirakçılarının diqqətinə mükəmməl çatdırdı. Hesab edirəm ki, belə məlumatların məhz ölkənin ikinci şəxsi tərəfindən verilməsi həm də mötəbərliyi önəmli edir. Tədbir iştirakçıları bunun fərqinə varır və öz ölkələri üçün də tətbiqində maraqlı olduqlarını göstərirlər".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Məlum olduğu kimi, Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Birləşmiş Millətlər Təşkilatı ilə birgə BMT-nin Dövlət Xidmətləri Forumunun keçirilməsini gerçəkləşdirib. Məlumat üçün bildirək ki, forum 2003-cü ildən etibarən 23 iyun - BMT-nin Dövlət Xidmətləri Günü ərəfəsində hər il təşkil olunur.**

# BMT Forumu Azərbaycanın ASAN, ABAD modellərinin dünyəvi yayılmasında güclü rol oynaya bilər

## *Aydın Mirzəzadə: "Forumun keçirilməsində məqsəd vətəndaş-dövlət münasibətlərinin asanlaşdırılmasını dünyaya yaymaqdır"*




Bu forumun keçirilməsində məqsəd dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual olan məsələlər üzrə müzakirələrin aparılması, habelə dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsidir. Həmçinin, forum çərçivəsində dövlət xidmətləri sahəsində dünya üzrə ən qabaqcıl və innovativ modellər mükafatlandırılır.

BMT-nin Dövlət Xidmətləri Forumu Azərbaycanın ASAN və ABAD layihələrinin dünyada təbliğində və yayılmasında necə rol oynayacaq?

**Məsələ ilə bağlı fikir bildirən millət vəkili Aydın Mirzəzadə "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu forumun keçirilməsində məqsəd vətəndaş-dövlət münasibətlərinin asanlaşdırılmasını dünyaya yaymaqdır:** "Məlumdur ki, bu gün kimsə hər hansı bir arayış alarkən saatlarla qapı arxasında dayanmır. Vətəndaş məmur özbaşınalığı ilə üzləşmir. Son zamanlar ölkəmizdə vətəndaşların rahatlığı üçün yaradılan layihələr bir daha göstərdi ki, əsas məqsəd ölkə əhalisinin rahatlığının təmin olunmasıdır. Bakıda BMT-nin Dövlət Xidmətləri Forumu keçirilərkən Azərbaycanda vətəndaşların rahat şəkildə işlərinin həll olunması üçün ASAN, ABAD və DOST xidməti layihələri haqqında geniş məlumat verildi. BMT baş katibinin müavini məlum forumda iştirak edərkən ASAN, ABAD və DOST xidməti ilə yaxından tanış oldu.

*"Bu forum sayəsində Azərbaycanın ASAN və ABAD layihəsi dünyada geniş şəkildə təbliğ olunacaq"*

Baş katibin müavininə bu günədək ASAN xidmətə 30 milyona yaxın vətəndaşın müraciət etdiyi və onlara tez bir zamanda xidmət göstərildiyi barədə məlumat verilib.

**BMT baş katibinin müavininin şəxsən Azərbaycan təcrübəsi ilə tanış olması onu göstərdi ki, Azərbaycan bu kimi layihələrlə dünyaya nümunə ola bilər. Bu forum sayəsində Azərbaycanın ASAN və ABAD layihəsi dünyada geniş şəkildə təbliğ olunacaq. Onu da bildirim ki, vətəndaş-dövlət münasibətlərində digər layihələrin tətbiqi gözlənilir".**

*Günel CƏLİLOVA*

# Azərbaycan dünya neft qiymətinin sabit qalması üçün ən optimal qərarını verdi - mövqeyimiz örnəyə çevrilir...

**Neft bazarlarında qiymətlərlə bağlı dinamik dəyişikliklər bu sahənin hələ də spekulyasiyalardan tam xilas olmadığını üzə çıxarır. Buna rəğmən, hasilatçı ölkələrin böyük əksəriyyəti bazarı qorumaq məqsədilə müvafiq fəaliyyətin davam etdirilməsini, xüsusən də OPEC-ə üzv və qeyri-üzv ölkələrin işbirliyinin zəruri olmasını gündəmə gətirir.**

Çünki məhz bu şəraitdə neft bazarını siyasi təsirlərdən xilas etmək mümkün sayılır.

Qeyd edək ki, bu məsələ iyulun 2-də Vyanada keçirilməsi qərara alınan OPEC-ə üzv və qeyri-üzv ölkələrin 6-cı iclasının xüsusi diqqət mərkəzində yer alacaq. İclasda iştirak edəcək Azərbaycanın energetika naziri Pərviz Şahbazov hesab edir ki, neft hasilatının azaldılması ilə bağlı OPEC+ razılaşmasını eyni şərtlərlə uzatmaq məqsədəuyğun olar: "Hesab edirəm ki, ilin ilk yarısı üçün razılaşdırılan format, qərar davam etməlidir. Bu minimum proqramdır. Əgər heç nə baş verməsə, həmin rejimi davam etdirmək doğru olardı". Nazirin sözlərinə görə, bunun üçün heç bir maneə yoxdur, amma iyulun 1-2-də müvafiq qərarların verilməsi gözlənilən OPEC+ iclasını gözləmək lazımdır: "Hələ ki, heç bir çətinlik görmürəm. Kiminsə əks mövqedə olduğu mənə məlum deyil. Hesab edirəm ki, konsensus var, amma iclasda daha çox məlumat alacağıq. Bizim son aylarda bazarın baş verən iqtisadi və siyasi xarakterli hadisələrə necə reaksiya verdiyini analiz etmək imkanımız olacaq". Nazir əlavə edib ki, Azərbaycan ilk yarımilin yekunları üzrə öhdəliyə əməl edəcək. Hazırda Azərbaycan kvotaya uyğun olaraq gündəlik hasilatı 20 min barrel azaldıb.

"LUKoil" şirkətinin prezidenti Vahid Ələkbərov da hesab edir ki, OPEC+ razılaşması neft bazarını kənar təsirlərdən qorumaq üçün çox mühümdür: " OPEC+ razılaşması neft bazarındakı spekulyasiyaları ləğv etməyə imkan verdi. Bu səbəbdən OPEC+ fəaliyyətini davam etdirməlidir. "Biz OPEC+ razılaşmasını ilk gündən dəstəkləmişik. Mən bu gün də onu dəstəkləyirəm. OPEC+ həmişəlik saxlanmalıdır. Bu razılaşma sayəsində biz xam neft bazarındakı spekulyantları praktiki olaraq ləğv edə bildik".

Səudiyyə Ərəbistanının enerji, sənaye və təbii sərvətlər naziri Xalid əl Falih da qeyd edir ki, OPEC və qeyri-OPEC ölkələrinin, demək olar ki, hamısı neft hasilatının azaldılmasına dair "Əməkdaşlıq Bəyannaməsi"nin müddətini daha 6 ay uzatmağa razıdır: "İraqın neft naziri Tamir əl Qabdan bunu ictimaiyyət üçün də açıqlayıb, özəl söhbətimiz zamanı da təsdiq edib. OPEC+ sazişinə qoşulmuş BƏƏ, Küveyt kimi böyük hasilatçılar, həmçinin Oman, Qazaxıstan, Azərbaycan kimi qeyri-OPEC ölkələri sazişin müddətini uzatmağı dəstəkləyir". Nazir OPEC ölkələri arasında ən böyük hasilatçı ölkə kimi hasilatı azaltmaq barədə sazişə əməl etməkdə ilk gündən nümunə olduqlarını dilə gətirib: "Rusiya, İraq, Qazaxıstan, Birləşmiş Ərəb Əmirlikləri kimi mühüm iştirakçıların da qalan iştirakçı ölkələrə nümunə göstərəcəklərini gözləyirəm. Ötən ilin iyun ayında məhdudiyyətləri zəiflətməyimizədək Rusiya da 2017-2018-ci illər ərzində hasilatı azaltmaqla bağlı razılaşmalara dəqiq əməl edirdi, 2019-cu ildə buna qayıdacaqlarına inanıram. May-iyun aylarında hasilatın azaldılması ilə bağlı icra vəziyyəti yaxşı olub. Sazişin uzadılması rəsmi olaraq imzalandıqdan sonra Rusiyanın ilin sonunadək öhdəliyə əməl edəcəyinə ümidvaram. Rusiyanın bir çox şirkətləri, o cümlədən "LUKoil"un rəhbəri Vahid Ələkbərov tərəfindən həmrəy mövzuda bəyanatlar eşitmişəm. Odur ki, əməkdaşlığın üstünlükləri göz qabağındadır. Rusiyanın hasilatı cəmi 2 faiz azaltması sabitlik və mühüm artım deməkdir. Bazar izlənməlidir, onu sabitliyə yönləndirdiyimizə əmin olmalıyıq. Məncə, Rusiya tərəfinin də sanksiyalar nəticəsində Venesuela və İranın ixracına təsirin olması, bazarın itirdiyi neft həcmi barədə mübahisəyə səbəb olub-olmayacağına dair sualları var. Bazarı izləməyə davam edəcəyimizlə bağlı razılaşdıq".

Xatırladaq ki, 2016-cı ilin noyabr ayında OPEC+ formatının iştirakçı ölkələri gündəlik neft hasilatını həmin ilin oktyabr ayı səviyyəsinə nisbətən 1,8 milyon barrel azaltmaqla bağlı razılığa gəlib. Ötən il iyun ayında isə ABŞ-ın İrana qarşı sanksiya tətbiqi ərəfəsində qiymətlərin sürətlə artdığı bir vaxtda gündəlik hasilatı 1 milyon barrel artırmaq qərarı verilsə də, ABŞ-ın İran neftinin iri idxalçılarına möhlət verməsindən sonra 2019-cu ilin ilk yarısı üçün gündəlik hasilatı 2018-ci ilin oktyabr ayına nisbətən 1,2 milyon barrel azaltmaq razılığı əldə olundu. Bu il OPEC+ nazirlərinin Vyana görüşündə sözügedən razılaşmanın bundan sonrakı vəziyyəti müzakirə olunacaq. Gözlənir ki, OPEC+ ölkələri müvafiq sazişin müddətini daha da uzatsınlar. Çünki neftin aşağı qiyməti onların heç biri üçün sərfəli sayılmır. Bunu iqtisadçı Vüqar Bayramov da qeyd edir və hesab edir ki, OPEC+ ölkələri qiymətləri sabit saxlamaq üçün yenə müvafiq addımlar atacaq. Onun sözlərinə görə, aşağı qiymət hasilatçı ölkələr, o cümlədən Azərbaycan üçün sərfəli sayılmır: "Neftin qiymətinin 60 dollardan aşağı düşməsi büdcə baxımından Azərbaycan üçün arzuolunan deyil. Amma neftin qiyməti 60 dollardan aşağı ensə də, bu, Azərbaycanın sosial xərclərinə təsir etməyəcək. Hazırda dünya bazarında "Brent" 65 dolları keçib. Son günlər neftin qiymətində kəskin enmələrdən sonra artıq bazarlarda qiymət artımı müşahidə olunur. Azərbaycanda 2019-cu ilin dövlət büdcəsində neftin bir barrelinin qiyməti 60 dollar nəzərdə tutulub. Hazırda qiymət 60 dollardan yüksəkdir və hələlik heç bir narahatlıq yoxdur. Qiymətin 60 dollardan aşağı düşməsi nəticə etibarilə büdcə gəlirlərimizə mənfi təsir göstərəcək. Çünki bu, büdcədə proqnozlaşdırılan gəlirin əldə edilməsinə imkan verməyə bilər.

Lakin mövcud qiymətlərlə Azərbaycan büdcə siyasətini proqnozlaşdırdığı kimi davam etdirmək imkanlarına malikdir. Hər bir halda, neft qiymətinin 60 dollardan aşağı enməsi Azərbaycanın sosial xərclərinə təsir etməyəcək. Çünki ölkəmizdə qəbul olunan qərara əsasən sosial xərclər azaldıla bilməz".




***Tahir TAĞIYEV***

# Türkiyədə, İranda və Gürcüstanda vəziyyət, Rusiyanın regional qoşunları hazır vəziyyətə gətirildi, Paşinyan Təhlükəsizlik Şurasını topladı...

**Ermənistan KİV-i xüsusi sevinclə Rusiyanın hərbi qüvvələrinin hazırlıq vəziyyətinə gətirildiyi barədə məlumatlar tirajlayır. Qeyd edilir ki, hazırlıq vəziyyətinə gətirilən silahlı qüvvələr sırasında Ermənistanda dislokasiya olunan Rusiya bazaları da var. Bunu İran və Gürcüstan ətrafında gərginləşən vəziyyət, hətta Türkiyədəki son seçkilərin nəticələri ilə əlaqələndirilər də az deyil.**

***Əhəd Məmmədli:*** *"Söz-söhbət gəzir ki, ABŞ şimaldan İrana hücumda plasdarm kimi Ermənistandan istifadə edəcək"*

Maraqlıdır ki, məhz bu hadisələrin fonunda Ermənistanın Baş naziri ölkəsinin Təhlükəsizlik Şurasının iclasını çağırıb. Paşinyan bildirib ki, Ermənistan və qondarma qurumun təhlükəsizliyi hökumət üçün olduqca ciddi prioritetdir: "Qeyd etmək lazımdır ki, bizim əvvəlki iclasımızdan sonra, çox təəssüf, Ermənistan ətrafındakı təhlükəsizlik mühiti nəinki tükənməyib, əksinə, müəyyən proseslər baş verir. Bu proseslər təhlükəsizlik çağırışları məsələsində bizi daha diqqətli olmağa məcbur edir.

Bugünkü iclasımızın gündəmində regional vəziyyətlə əlaqəli olan müvafiq məsələlər də var. Əlbəttə, Ermənistan və Qarabağın (qondarma qurum - red.) təhlükəsizliyi hökumətimiz üçün olduqca ciddi prioritetdir. Və bizim bu istiqamətdə təkcə cari, ortamüddətli yox, eləcə də strateji, uzunmüddətli problemlərin həll edilməsi və müzakirə edilməsi üzrə məsələlərimiz var. Əlbəttə, bu müzakirələr təkcə Təhlükəsizlik Şurası formatında yox, eləcə də siyasi mühitdə, hökumətin müxtəlif iş müzakirələri və məsləhətləşmələri formatlarında baş verir. Lakin Təhlükəsizlik Şurası elə bir orqandır ki, burada bütün müzakirələrin nəticələri əldə olunmalı və konkret praktiki nəticələrə, qərarlara çevrilməlidir".

Ermənistan Təhlükəsizlik Şurasının iclasında təhlükəsizlik sahəsinə aid olan məsələlərin geniş müzakirə olunduğu qeyd olunur.

Ermənistanın regionda baş verən proseslərdən aşırı əndişə keçirməsi, hətta Təhlükəsizlik Şurasının iclasını çağırması nə ilə bağlıdır?

**Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Rusiya regionumuzu öz maraq dairəsində saxlayır:** "Ona görə burada baş verən hadisələri diqqətlə izləyir. Gürcüstan, İran, hətta Türkiyədə baş verən hadisələrə Rusiya öz mənafelərinin əleyhinə cərəyan edən proseslər kimi baxa bilər. Zatən, Gürcüstandakı hadisələri Putin anti-Rusiya provokasiyaları adlandırdı. İranla bağlı olanları da Rusiya ciddi izləyir. Düzdür, müharibə olan təqdirdə İrana görə ruslar amerikalılarla vuruşan deyillər, bunu açıq bəyan da ediblər, amma yaxınlarında ola biləcək müharibəyə də hazırlıqlı olmaq istəyirlər. Türkiyəyə gəldikdə, tərəfdaşları AK Partiya iqtidarının İstanbul Baş Bələdiyyə seçkilərində qərbyönümlü müxalifətə uduzması Moskvanı narahat etməyə bilməz. Ortada Türkiyə ilə skandallı S-400 razılaşması var. Digər sahələrdə böyük həcmli razılaşmalar var. S-500 birgə layihəsi ehtimalı durur. Bu dönəmdə Türkiyədə vəziyyətin qarışması Rusiyaya lazım deyil. Erməni mətbuatı rus qoşunlarının o cümlədən Ermənistanda hazırlıq vəziyyətinə gətirilməsini yuxarıda qeyd etdiklərimlə əlaqələndirirlər. Rusiya Gürcüstan, İran, Türkiyədə baş verənləri maraqlarına zidd qiymətləndirib buna cavab olaraq adekvat addımlar haqqında fikirləşə bilər. İlk görünüşdə İran və Türkiyəyə Gürcüstanla müqayisədə Rusiyanın daha az təsiri ola bilər, lakin bu ölkələrlə də Moskvanın tarixi münasibətləri var və təsir rıçaqlarını saxlayır".



Politoloqun sözlərinə görə, Ermənistanın narahatlıq keçirməsi səbəbsiz deyil: "Çünki Ermənistanın İranla böyük sərhədi var. İranda ola biləcək müharibə Ermənistanı çox ciddi narahat edir. Ermənistan müharibə alovunun öz ərazisinə keçəcəyindən qorxur. Söz-söhbət gəzir ki, ABŞ şimaldan İrana hücumda plasdarm kimi Ermənistandan istifadə edəcək. Düzdür, Ermənistanın buna gedəcəyi mənə inandırıcı gəlmir. Bu, İrəvan üçün böyük risqdir. Ermənistan fikirləşir ki, bununla Rusiya və İranın arasında qala bilər. İstənilən halda, bölgədə gərginləşən vəziyyətin Rusiyanı narahat etməsi fonunda, Ermənistan da ciddi əndişələnir. Çünki Ermənistan, faktiki olaraq, Rusiya üçün vassal ölkədir".

***Məhəmmədəli QƏRİBLİ***

# Venesiya Komissiyası Ermənistanda demokratiya adı altında məhkəmə "islahatlarına" hələ susur...

**Venesiya Komissiyası Ermənistanda həyata keçirilən məhkəmə "islahatları" ilə bağlı hesabat hazırlamağa qərar verib. Avropa İttifaqının rəsmi saytında bu barədə məlumat verilib. Dərc edilən sənəddə deyilir ki, Komissiya Ermənistanda baş verən son hadisələrlə bağlı məlumatlanıb. Qərar verilib ki, Komissiyanın nümayəndəsi baş verənləri yaxından izləsin.**




***Nəzakət Məmmədova:*** *"Venesiya Komissiyasının verdiyi tövsiyələr bükülüb kənara tullandı"*

Bildirilir ki, hazırlanacaq hesabat AB-nin oktyabr ayında keçiriləcək plenar iclasına təqdim ediləcək. Maraqlıdır ki, Venesiya Komissiyası Ermənistandakı nəinki məhkəmə islahatları ilə bağlı mövqe bildirməkdə gecikib, eləcə də parlament seçkiləri və seçki sisteminin təkmilləşdirilməsi ilə bağlı verilən tövsiyələrin Ermənistan rəhbərliyi tərəfindən yerinə yetirilmədiyi barədə hələ ki, münasibətini açıqlamayıb. Azərbaycanla bağlı isə dərhal tənqidi mövqe ortaya qoyan Komissiyanın bu ikili mövqeyi başadüşülən deyil. Ermənistanla bağlı hesabatları Venesiya Komissiyası niyə gecikdirir?

**Politoloq Nəzakət Məmmədova qəzetimizə açıqlamasında bildirdi ki, bunun başlıca səbəbi ikili standratlarla bağlıdır:** "Bu, məsələnin bizə aid olan tərəfidir. Ermənistanla bağlı göstərdikləri passivlik isə Paşinyan hakimiyyətinin mahiyyəti ilə bağlıdır. Çünki həmin adamı xarici qüvvələr hakimiyyətə gətirib. Bu səbəbdən də orada baş verənləri qulaqardına vururlar. Seçki sisteminin təkmilləşdirilməsi ilə bağlı Venesiya Komissiyasının verdiyi tövsiyələr bükülüb kənara tullandı. Orada qeyd edilən heç bir tövsiyəyə əməl olunmadı. Məhz buna görə də Paşinyan hakimiyyəti demokratiya adı altında öz istədiklərini ən iyrənc formada həyata keçirdi. Siyasi rəqiblərinə qarşı bütün amansız vasitələrdən istifadə etdilər. Az-çox onun iradəsinə tabe olmayan məhkəmələrin üzərinə isə səlib yürüşü Köçəryanın azad edilməsindən sonra başladı. Artıq Venesiya Komissiyası görür ki, Paşinyanın hərəkətləri açıq diktatura ilə müşahidə edilir. Buna görə də bir qədər onu sıxmaq qərarına gəliblər. Ermənistanda siyasi maraqları olan böyük güclər də Paşinyan hakimiyyətinin dalana dirənməsini istəməyiblər. Komissiyanın aktivləşməsi həm də Paşinyanın Qərbə verdiyi vədləri yerinə yetirə bilməməsi ilə bağlıdır. Çünki o, Rusiyanın maraqlarını zərrə qədər də olsun sıxışdıra bilmədi. Bundan bir daha görünür ki, bəzi beynəlxalq təşkilatlar ədalət prinsipləri ilə deyil, öz maraqlarına uyğun şəkildə fəaliyyət göstərirlər. Paşinyan məhkəmələrdən, faktiki olaraq, Köçəryanı azad etməyin açığını çıxmaq istəyir. Ancaq hakimiyyətin tamamilə ayrı qolu olan məhkəmələrlə bu üsullarla mübarizə ən diktator hökumətlərə məxsusdur. Buna yalnız Venesiya Komissiyası deyil, həm də insan haqları, demokratiyanı dəstəkləyən nüfuzlu təşkilatlar münasibət bildirməlidirlər. Təəssüf ki, bunu görmürük. Bir daha əmin oluruq ki, şəxsi maraqlar qalan dəyərləri üstələyir".

*"Buna yalnız Venesiya Komissiyası deyil, həm də insan haqları, demokratiyanı dəstəkləyən nüfuzlu təşkilatlar münasibət bildirməlidirlər"*

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Qondarma "DQR"i tanıtmaq üçün qurulan idman, mədəniyyət tədbirləri dalbadal iflasa uğrayır

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanan Azərbaycan torpaqlarında qondarma rejimin saxta rəhbərləri mədəniyyət, idman, turizm və s. bağlı müxtəlif "beynəlxalq tədbirlər" keçirirlər. Əlbəttə, qondarma rejimin həyata keçirmək istədiyi heç bir tədbirin hüquqi əsası olmadığı bütün dünyaya məlumdur.**

Bir sıra dövləti çıxmaq şərtilə, erməni fitvasına uyan dövlətlər də az deyil. Onlar burada keçirilən tədbirlərə qatılırlar. Baxmayaraq ki, qanunsuz keçirilən tədbirlərdə iştirak edən dövlətlərə dəfələrlə Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən xəbərdarlıq edilib, etiraz notası göndərilib. Xaricdə fəaliyyət göstərən erməni lobbisinin dəstəyilə təşkil edilən bu tədbirlərə idmançıların, mədəniyyət adamlarının cəlb edilməsini də əsasən onlar həyata keçirirlər. İşğal altında olan Azərbaycan ərazilərində ermənilərin keçirdiyi tədbirlərin əsas məqsədi qondarma rejimi tanıtmağa xidmət edir.

Ermənilər qondarma "respublika"nın adından keçirdikləri və qatıldıqları tədbirlərə mütləq dırnaqarası rejimin bayrağını da aparırlar. Belə təəssürat yaratmaq istəyirlər ki, qondarma "DQR" var və onun öz bayrağı mövcuddur. Əslində isə heç kəsin tanımadığı bir qondarma qurumun həyata keçirdiyi tədbirlər onların özlərini aldatmasından başqa bir şey deyil.

İndiyə qədər ermənilər işğal etdikləri Dağlıq Qarabağ və ətraf rayonlarda bir neçə idman və mədəniyyət tədbiri keçiriblər. Onlar indi də ciddi cəhdlə "ümumerməni yay oyunlar"ı keçirməyə hazırlaşırlar. Əvvəlcədən onu da bildirək ki, ermənilərin bu oyunları keçirməsi artıq bir neçə dövlət tərəfindən etirazla qarşılanıb. Gürcüstan və Türkiyə xarici işlər nazirlikləri öz ölkələrinin idmançılarına bu yarışmaya qatılmağı qadağan ediblər. Məlumatlara görə, bu tendensiyaya digər ölkələr də qoşulacaq. Gürcüstan və Türkiyənin açıq şəkildə boykot etdiyi bu yarışın perspektivi yoxdur.

Ermənilərin "yay oyunları"nı Azərbaycan şəhəri Xankəndidə keçirməsi xüsusi məqsəd daşıyır. Məlum olduğu kimi, vaxtilə Pənah xanın tikdirdiyi Şahbulaq qalasını da mənimsəyən separatçı rejim qalanı təmir etdirərək "dövlət qoruq-muzeyi"nə çevirib və Azərbaycanın bu qədim tarixi abidəsi hesabına xaricdən turist cəlb edərək mümkün qədər pul qazanmağa çalışır. Qalanın ətrafında Ermənistan arxeoloqları qanunsuz və saxta qazıntı işləri aparırlar.

Ermənilər "yay oyunları"na o qədər ciddi hazırlaşırlar ki, hətta erməni mətbuatında gedən məlumatlara görə, İrəvandan Türkiyənin Van şəhərinə təşkil edilən birbaşa aviareysin videogörüntüsü yayılıb. Qeyd edilənə görə, təyyarənin sərnişinləri bu ilin avqust ayında işğal altında olan Qarabağda keçirilməsi planlaşdırılan "Ümumerməni oyunları"nın təşkilat komitəsinin üzvləri olublar. Nümayəndə heyətinə "Ümumerməni Oyunlarının Dünya Komitəsi"nin "sədri" İşxan Zakaryan başçılıq edib. Erməni nümayəndə heyəti Van şəhərində bir sıra görüşlər keçirib. Van bələdiyyəsində baş tutan görüşdə erməni nümayəndə heyətinə qiymətli hədiyyələr təqdim olunub. O da acınacaqlı haldır ki, "ümumerməni oyunları"nın "təşkilat komitəsi"nin üzvləri Türkiyənin Hatay vilayətində yerləşən "Musa Dağı"nın yaxınlığındakı Vakıflı kəndindəki "Məryəm Ana" ("Surb Asdvadzadzin") kilsəsində dini ayin həyata keçiriblər. Ayin zamanı yandırılan şamlar vasitəsilə "Ümumerməni oyunları"nın məşəlini də yandırıblar və bu məşəli bu ilin avqust ayının 6-da işğal altında olan Xankəndi şəhərində baş tutacaq açılış mərasiminə aparacaqlar. Məşəl yandırma mərasimində Ermənistan bayrağı ilə birgə işğal altında olan Dağlıq Qarabağda yaradılan separatçı "Artsax" rejiminin bayrağı da qaldırılıb.

Mərasim iştirakçıları daha sonra "Kilikiya Erməni Krallığının" paytaxtı olduğu iddia etdikləri "Sis" (Kozan) qalasını, həmçinin, özlərinin kralı olduğu iddia etdikləri 2-ci Levonun qalasını da ziyarət ediblər. Məlumat üçün onu da bildirək ki, "Musa Dağı" ermənilər üçün həm də Osmanlıya qarşı başladılan üsyan hərəkatının simvolu hesab olunur. 1915-ci ildə Osmanlıya qarşı üsyan edən ermənilər "Musa Dağı"na çıxaraq müqavimət göstərmiş və daha sonra Fransız gəmilərinin yardımı ilə oradan xilas olmuşdular. Bununla bağlı "Musa Dağı"nda 40 gün" adlı film də çəkiblər. Qondarma rejimin nümayəndələri saxta yarışmanın ikinci məşəlini isə Ermənistanın Türkiyə ilə sərhədi yaxınlığında, Ağrıdağın ətəyindəki Xor Virap kilsəsində yandırıblar. Üçüncü məşəl isə Şahbulaq qalasında yandırılıb. Azərbaycana aid qalada bu məşəlin yandırılması həqiqətən də böyük saxtakarlıqdır.

Qeyd edək ki, ermənilərin keçirmək istədikləri bu qondarma yarışa etiraz olaraq Azərbaycan tərəfindən addımlar atılmaqdadır. Ümid edirik ki, ermənilərin digər layihələri, tədbirləri kimi, "yay oyunları" da heç bir effekt verməyəcək.

Xatırladaq ki, bir neçə həftə əvvəl qondarma "respublika"da "Müstəqil Futbol Assosiasiyaları Konfederasiyası" çərçivəsində separatçı və tanınmamış ərazilərin "futbol üzrə Avropa çempionatı"keçirilib. Maraqlıdır ki, bu turnirdə heç bir ciddi komanda iştirak etməyib, turnirdə iştirakçıları əsasən tanınmamış rejimlərin təmsilçiləri olub.

Ekspertlər qeyd edirlər ki, ermənilərin bütün tədbirləri Xankəndinə salması bu şəhərin onlara məxsus olduğunu "sübut" etməkdir. Tarixçilər qeyd edirlər ki, əslində, ermənilərin idman, mədəniyyət tədbirlərini belə səsli-küylü keçirməsi dünya tərəfindən müsbət qəbul edilmir və hala qarşı etiraz edirlər. Sadəcə, bu etirazlar müxtəlif formalarda olduğu üçün, diqqəti elə də cəlb etmir.

Qeyd edək ki, Azərbaycan tərəfi dəfələrlə rəsmən bildirib ki ölkəmizin işğal olunmuş ərazilərində hər hansı bir mədəni, idman və digər tədbirlərin keçirilməsi qanunsuzdur.

Qondarma rejim təmsilçiləri idmandan və mədəniyyətdən siyasi məqsədlər üçün istifadə edirlər. Əslində, idmandan və mədəniyyətdən siyasi alət kimi istifadə etməyin özü gülüncdür və bundan yalnız qondarma və saxta insanlar istifadə edirlər.

Ekspertlər qeyd edirlər ki, qondarma rejimin heç bir idman komandası, eləcə də musiqi qrupu beynəlxalq tədbirlərə buraxılmır. Onlar buna nə qədər cəhd etsələr də, alınmır ki, alınmır.

Separatçı rejim xeyli müddət əvvəl işğal altında olan Azərbaycan torpaqlarında sambo üzrə "beynəlxalq yarış" keçirmişdi. Çox təəssüf ki, bizə "dost" deyən bəzi dövlətlərin idmançıları da bu qondarma yarışa qatılmışdılar. Qondarma "Dağlıq Qarabağ Respublikası"nın bayrağı altında keçirilən yarışın sözsüz ki, heç bir əhəmiyyəti olmadı. Bu, ermənilərin növbəti təxribatından başqa bir şey deyil.

Sözsüz ki, ermənilərin keçirdikləri bu yarış da Azərbaycanda narazılıqla qarşılanmışdı. 9 qat dünya çempionu, Azərbaycan Sambo Federasiyasının prezidenti Ceyhun Məmmədov mətbuata bildirmişdi ki, həmin yarış beynəlxalq qurum tərəfindən tanınmır: "Mən Azərbaycan Sambo Federasiyasının prezidenti olmaqla yanaşı, Avropa Sambo Federasiyasının vitse-prezidentiyəm. Bir müddət əvvəl Avropa Sambo Federasiyasının iclasında idim. Bu turnir keçirilən yarışlar siyahısında təqdim olunsaydı, mən öz etirazımı bildirərdim. Ola bilər ki, həmin yarışı ermənilər öz aralarında keçirib. Yəni beynəlxalq qurumlar tərəfindən həmin yarış tanınmır".

Qondarma rejimin növbəti təxribatı KVN-lə bağlı olub. Ermənilər yalandan məlumat yaymışdılar ki, guya "KVN-2017" festivalında qondarma rejim də təmsil olunub. Lakin onların yaydığı xəbər Beynəlxalq KVN İttifaqı tərəfindən təkzib edildi və rəsmən bildirildi ki,



tanınmamış qurumların, yaranmış birliklərin, o cümlədən də "Artsax"ın adı ümumiyyətlə ləğv edilib.

Qeyd edək ki, ermənilər dəfələrlə qondarma rejimin bayrağı altında çıxış etməyə cəhd ediblər. Hətta İranda keçirilən idman yarışında erməni idmançının köynəyində qondarma "Dağlıq Qarabağ Respublikası"nın bayrağı əks olunmuşdu. Sözügedən faktla bağlı İran rərəfi bəyanat yaydı ki, idman yarışlarının təşkilat komitəsinə ciddi xəbərdarlıq edilib və gələcəkdə Ermənistandan gələn idman komandaları İranda ciddi nəzarət altında buraxılacaqlar. Onlar hətta "Biz qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımırıq" - bəyanatını da vermişdilər.

Məlum olduğu kimi, qondarma rejimin təşəbbüsü ilə işğal altında olan Azərbaycan şəhərləri ilə bəzi Avropa şəhərlərinin "qardaşlaşması" ilə bağlı müqavilə bağlanmışdı. Artıq Fransa şəhərləri ilə Qarabağ separatçılarının "dostluq xartiyası" ləğv edilib.

Ermənistan silahlı qüvvələrinin işğalı altında saxladığı Azərbaycan torpaqlarında ermənilər tərəfindən qanunsuz əməllərin davam etdirildiyi məlumdur. Avropa ölkələrindəki erməni lobbisinin təsiri və təhriki ilə Fransanın və digər ölkələrin şəhərləri ilə Azərbaycanın işğal altında olan bir sıra şəhərləri "qardaşlaşdırılıb". Ermənilərin həyata keçirdikləri bu məkrli siyasətin ifşa edilməsi istiqamətində dəfələrlə Azərbaycan haqlı olaraq öz mövqeyini bildirib. Azərbaycanın bu sahədə həyata keçirdiyi məqsədyönlü işlər artıq bəhrə verməkdədir. Belə ki, "qardaşlaşma" aktları pozulmağa başlayıb. Bu hərəkatın ermənilərə daim böyük dəstək verməklə seçilən Fransada başlaması diqqəti çəkir. Bu ölkənin müxtəlif məhkəmələri tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikası"nın şəhərləri ilə "qardaşlaşan" bir neçə Fransa şəhərinin "qardaşlaşmasını" pozmaqla bağlı qərar qəbul edilib. Belə ki, Fransanın Qrenobl şəhərinin inzibati məhkəməsinin qərarı ilə Dağlıq Qarabağdakı qondarma rejimin nümayəndələri ilə Fransanın şəhərləri, kommunaları və bölgələri daxil olmaqla, qəsəbələrlə imzaladığı daha dörd "dostluq nizamnaməsi" ləğv edilib.

Bu qərar 29.05.2019-cu il tarixində Fransanın Serji-Pontuaz inzibati tribunalı tərəfindən qəbul edilmiş birinci qərarın məntiqi davamı sayılır.

Qeyd edək ki, mayın 30-da Fransanın Val d'Oise Departamentinin İnzibati Məhkəməsi Arnuvil şəhəri ilə Dağlıq Qarabağdakı erməni separatçıları arasında imzalanan "Dostluq xartiyası"nı ləğv edib. "Bakı-Xəbər"in yazdığına görə, sözügedən "sənəd" Fransanın Arnuvil şəhərinin meri Paskal Dol ilə hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Azərbaycanın Xocavənd rayonunun Şeher yaşayış məntəqəsinin separatçı rəhbəri arasında imzalanmışdı. Onu da vurğulayaq ki, Dağlıq Qarabağa qanunsuz səfər edərək orada separatçılarla görüşən və "sənəd" imzalayan merə qarşı ittiham Fransa hökuməti tərəfindən ölkənin regionları ilə əməkdaşlığa dair qanunun pozulması maddəsi ilə irəli sürülüb. Şikayətə baxan Fransanın Val d'Oise Departamentinin Cergy-Pontoise İnzibati Məhkəməsi fransalı merin əleyhinə qərar verib.

Məlumat üçün qeyd edək ki, 2018-ci ilin oktyabrında Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağa qanunsuz səfər ediblər və separatçılarla bir sıra görüşlər keçiriblər. Bundan sonra Fransanın Bakıdakı səfiri Oreliya Buşe Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb. Ona Fransa nümayəndələrinin Azərbaycanın maraqlarına, onun suverenliyi və ərazi bütövlüyünə toxunan bir sıra addımları, o cümlədən, bu yaxınlarda Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə Fransanın Sent Etyen şəhərinin meri və Arnuvil bələdiyyəsinin rəhbəri tərəfindən edilən qanunsuz səfərlərlə bağlı rəsmi etiraz bildirilib.

Qeyd edildiyi kimi, artıq Fransa nümayəndələrinin bu kimi addımlarına hüquqi və siyasi qiymətlər verilib, Fransa hökuməti bu ölkənin fiziki və hüquqi şəxslərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətinin qarşısının alınması üçün effektiv tədbirlər görməyə çağırılıb və qarşı tərəfə Azərbaycan XİN-in rəsmi notası təqdim olunub.

Bu prosesin Azərbaycanın xeyrinə getdiyi məlumdur. Fransa məhkəməsinin çıxardığı ədalətli qərar nəticəsində beş "qardaşlaşma" hadisəsinə xitam verilib.

Heç şübhəsiz ki, Fransa İnzibati Məhkəməsinin qətnaməsi bir neçə cəhətdən çox əhəmiyyətlidir və bu həm də Fransadakı erməni lobbisinə vurulan ağır bir zərbədir. Ermənilər separatçı rejimin işğal altında saxladığı şəhərlərimizi Fransa şəhərləri ilə "qardaşlaşdırmaqla" qondarma "DQR"i tanıtmaq məqsədi güdürlər.

Məlum olduğu kimi, Fransanın özündə də bu saxta "qardaşlıq xartiyaları"na etiraz edənlər var və olub. Məsələn, Fransa Parlamentində Fransa-Azərbaycan dostluq qrupunun üzvü Jan-Lük Reitzer birmənalı şəkildə Dağlıq Qarabağın hazırda işğal olunmuş ərazi olduğunu bildirir və bu əlaqələrin qəti əleyhinə olduğunu deyir: "Beynəlxalq hüququn qanunları var və onlara riayət etməmiz gərəkdir. Fransa xarici işlər nazirinə məktub ünvanlayaraq Fransanın bir sıra şəhərlərinin başçılarının Dağlıq Qarabağ bölgəsinin şəhərləri ilə əlaqələr qurduqları, səfərlər etdikləri, dostluq xartiyaları imzaladıqları barədə məlumatlandırmışam və bu əlaqələrin Fransa qanunlarına zidd olduğunu vurğulamışam. Bu yaxınlarda (2018-ci ilin oktyabrı - red.) Fransanın Sant-Etyen (Saint-Etienne) şəhəri ilə Dağlıq Qarabağda yerləşən şəhərlərdən biri ilə əlaqələr qurulub. Mən Sant-Etyen şəhərinin merinə məktub yazaraq bunun beynəlxalq hüquq normalarına və Fransa Xarici İşlər Nazirliyinin qərarlarına zidd olduğunu bildirmişəm. Məktubuma Fransa xarici işlər naziri Jan-İv Lö Dryanın mənim məktubumu cavablandıraraq beynəlxalq hüququn qanunlarını pozan bu cür ikitərəfli əlaqələrin məsləhət görülmədiyini təsdiqləyən məktubunun surətini də əlavə etmişəm. Hələlik heç bir cavab almamışam. Sant-Etyen şəhərinin merinə göndərdiyim məktubumun surətini bir sıra orqanlara da göndərmişəm ki, qoy bilsinlər, parlamentarilər beynəlxalq ictimaiyyət tərəfindən tanınmamış ərazilərlə əlaqələr qurmağa digər ölkələrin suverenliyinə və ərazi bütövlüyünə xələl gətirən davranışlara yol verən bir sıra şəhər rəhbərlərinə qayda-qanunu xatırladır".

Həm qondarma rejimin keçirdiyi "beynəlxalq idman və mədəniyyət tədbirləri", həm də başqa ölkələrin şəhərləri ilə imzalanan "qardaşlıq xartiyaları" iflasa uğrayır. Bu da onu göstərir ki, artıq dünya erməni saxtakarlığından cana doyub.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Paşinyan Putini saymadı - Kremlin Ermənistanda qəti hərəkəti üçün əsaslar kifayətdir

**Ermənistanda "Qarabağ klanı" ilə mövcud hakimiyyət arasında gərginləşən münasibətlər fonunda Kreml Nikol Paşinyan iqtidarına qarşı daha açıq gedişlərə start verir. Belə görünür ki, Rusiya ona bağlı "Qarabağ klanı"nın Paşinyan tərəfindən hüquqi müstəvidə tam sıradan çıxarılmasını istəmir.**

Elə buna görə də Moskva indidən hərəkətə keçib. Elə bu günlərdə Ermənistanın "Baqramyan 26" kanalı belə bir məlumat yayıb ki, Rusiyanın Ermənistandakı səfiri Ermənistan Konstitusiya Məhkəməsinin rəhbərinə sabiq prezident Robert Köçəryanı müdafiə etmək qarşılığında zəmanət verib: "Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Ermənistanın Kontitusiya Məhkəsinin rəhbəri Qrayr Tovmasyanla görüşüb. Tovmasyan Serj Sarkisyanın təyin etdiyi adamdır. Öz karyerasında irəliləməsinə görə o, Serj Sarkisyana borcludur. Səfir Köçəryanla görüşdən sonra Tovmasyanla görüşür, halbuki, məhz Köçəryanla görüşə görə onu Ermənistan Xarici İşlər Nazirliyinə çağırıb, ölkənin daxili işlərinə müdaxilə etməməsi istənilmişdi.

Kopırkinlə görüşə qədər isə Tovmasyan Qarabağda olub. Burada onunla eyni zamanda Serj Sarkisyan da olub və o, Tovmasyana gələcək fəaliyyəti ilə bağlı məsləhət verib. Aydındır ki, səfirlə Tovmasyanın görüşündə Rusiya-Ermənistan əməkdaşlığı müzakirə edilməyib. Səfir, sadəcə, Robert Köçəryanın ittiham olunduğu 1 mart işinin gələcəyi ilə maraqlanıb. İş artıq Konstitusiya Məhkəməsinə göndərilib. Burada Köçəryana qarşı cinayət işinin davam etdirilib-etdirilməməyəcəyinə qərar verilməlidir. Yəqin ki, səfir Tovmasyana Rusiya tərəfinin Köçəryan işi ilə bağlı arzularını çatdırıb və Konstitusiya Məhkəməsinin hakiminə Moskvanın ona kömək və dəstək verəcəyi ilə bağlı zəmanət verib. Səfir Kopırkin çox təhlükəli oyuna daxil olub və əvvəl yazdığımız kimi, Rusiyanın Belarusdakı eks-səfiri Babiçin taleyini təkrarlaya bilər".

Xatırladaq ki, bu günlərdə Sergey Kopırkinin sabiq prezidentlərlə görüşünün olduğunu keçmiş iqtidar partiyası olan Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da təsdiq etmişdi. O bu xüsusda bildirirdi: "Hakimiyyətin deputatlarından biri bəyan edib ki, Rusiya səfiri Ermənistanın daxili işlərinə qarışma ması kontekstində Ermənistan Xarici İşlər Nazirliyinə söhbətə dəvət edilib. Bəs Bolton birbaşa Ermənistanın daxili işlərinə müdaxilə və erməni xalqını tarixi ideologiyasından imtina etməyə dəvət edərkən, bir adam yoxdur ki, desin siz və sizin şefiniz hardaydı?". O qeyd edib ki, dövlətin idarə edilməsi və dövlətlərarası münasibətləri partiyadaxili və qruplaşmadaxili münasibətlərlə qarışdırmaq olmaz: "Kopırkinin isə Köçəryandan savayı Serj Sarkisyanla da bir neçə görüşü olub. Bu görüşlər Rusiya səfirliyində və Respublika Partiyasının ofislərində baş tutub. Əsəbiləşmək və çaşmaq əvəzinə Nikol və onun tərəfdaşları rəsmi və parlament diplomatiyasının alfa ve omeqasını mənimsəsələr, daha yaxşı olar".

Ermənistanda fəaliyyət göstərən "Məlumatli Vətəndaşlar Birliyi" ictimai təşkilatı da vəziyyətin kifayət qədər gərgin bir həddə çatdığını bəyan edir. Qurum Kremlin Ermənistanda vəziyyəti qarışdırmaq istiqamətində artıq müəyyən addımlar atdığını da bildirir və bununla ilgili yaydığı bəyanatında qeyd edir: "Başqa sözlə desək, yaranmış vəziyyət onu göstərir ki, Rusiyanın özü indiki mərhələdə erməni-rus müttəfiqlik münasibətlərini sınağa çəkir. Bununla da rəsmi Moskva İrəvandan səsləndirilən bəyanatları nəzərə almadan daha sərt addımlar ata bilər. Lakin bunun nəticələri bütün tərəflər üçün gözlənilməz ola bilər. Artıq bizə də məlumdur ki, Sergey Kopırkin Ermənistanın Konstitusiya Məhkəməsinin sədri Qrayr Tovmasyanla görüşüb. Bu görüş kifayət qədər maraqlı və mürəkkəb, daxili siyasi və xarici siyasi kontekstdə baş verib və növbəti dəfə erməni-rus münasibətlərində Moskvanın konkret şəxslərin konkret maraqlarını müdafiə etməyə kökləndiyini göstərir. Hələ iyunun 13-də məlum olub ki, Rusiyanın Ermənistandakı səfiri "1 Mart" cinayət işi üzrə ittiham edilən Ermənistanın ikinci prezidenti Robert Köçəryanla görüşüb. Məlumdur ki, Rusiya Federasiyasının prezidenti Vladimir Putinin Köçəryanla sıx münasibəti var. Görüş erməni tərəfinin kəskin reaksiyasına səbəb oldu. Səfir və Tovmasyanın görüşü, faktiki olaraq, erməni tərəfinin kəskin reaksiyasından sonra baş verib və yeganə diqqətçəkən hal deyil. Məsələ burasındadır ki, Ermənistan Konstitusiya Məhkəməsinin sədri görüş məqamında Köçəryanın gələcək taleyində xüsusi rol oynayırdı. Çünki Köçəryan və digərlərinin işi Konstitusiya məhkəməsinə göndərilir. Bunlardan sonra, faktiki olaraq, Ermənistanın diplomatik heyəti ən sərt vasitələrdən birini seçməklə Köçəryana və Rusiya səfirinin görüşünə münasibət göstərərək, Moskvanın Ermənistanın daxili işlərinə qarışmasına mənfi yanaşdığını nümayiş etdirib. Bundan sonra rus tərəfi hər hansı bir bəyanat və ya diplomatik vasitə ilə vəziyyəti yumşaltmağa cəhd etmək əvəzinə, aşkarcasına erməni tərəfinin mövqeyinə əhəmiyyət verməyərək vəziyyəti daha da kəskinləşdirib. Başqa sözlə desək, yaranmış vəziyyət onu göstərir ki, Rusiyanın özü indiki mərhələdə erməni-rus müttəfiqlik münasibətlərini sınağa çəkir. Ermənistan bu gedişlə Rusiyanın timsalında mütəffiqini itirir. Kreml isə, yəqin ki, İrəvana qarşı daha sərt mövqeyə keçəcək".



"İravnuk" qəzeti isə baş verənlər fonunda yazır ki, Moskva digər təsir rıçaqlarını da işə salır. Məsələn, qeyd olunur ki, Rusiyada işləyən erməni oliqarxlara ən yüksək səviyyədə xəbərdarlıq olunub ki, Ermənistana pul ayırmasınlar. Rusiyada yaşayan bir çox erməni biznesmen artıq Ermənistandakı fəaliyyətini dondurub. Digər təsir rıçaqlarının da işə salınması Ermənistan üçün artıq müsbət heç nə vəd etmir.

Qeyd edək ki, az əvvəl Apelyasiya məhkəməsi sabiq prezident Köçəryanı yenidən həbsə qaytarıb. Deməli, Kremlin "iç Ermənistanda qəti hərəkətə keçməsi üçün" əsaslar kifayət qədərdi - Paşinyan Putini saymadı...

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ermənistan Qarabağ tənzimlənməsini müharibə həddinə gətirməyin əsl şokunu indi yaşamağa başlayır - Gürcüstan hadisələri fonunda...

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli istiqamətdə atılan addımlar istənilən nəticəni verməyəcəyi təqdirdə Azərbaycan ərazi bütövlüyünü güc yolu ilə bərpa etmək hüququnu özündə saxladığını dəfələrlə bəyan edib. İndi, Ermənistan da daxil olmaqla, beynəlxalq ictimaiyyətə, o cümlədən ATƏT-in Minsk Qrupunun həmsədrlərinə də yaxşı məlumdur ki, Azərbaycan artıq səbri tam tükənmiş vəziyyətdədir.**

Yaxın tezlikdə münaqişənin həlli istiqamətində Ermənistan tərəfindən müvafiq addımlar atılmasa, yəqin ki, Bakı güc amilinə əl atmalı olacaq. Bunu rusiyalı politoloq Fyodor Lukyanov da təsdiq edir: "Məlumdur ki, Qarabağ münaqişəsi xüsusi dinamikası olan münaqişədir. Lakin bu münaqişənin digər beynəlxalq inkişaf proseslərindən, xüsusilə tərəflər arasında gözlənilən səmərəli və konstruktiv danışıqların olmaması hallarından təsirləndiyi məqamlar az olmayıb. Bu səbəbdən indi münaqişənin həlli istiqamətində real addımların yoxluğu istənilən an savaşı alovlandıra bilər. Azərbaycan uzun müddət ərazi bütövlüyünün pozulmuş halda qalmasına dözmək niyyətində deyil".

O qeyd edib ki, bölgədə vəziyyətin saatlar ərzində dramatik şəkildə dəyişə biləcəyi bir məqamda tərəflər davamlı olaraq artıq nəticəsi olan danışıqlar aparmalıdır: "Lakin xarici işlər nazirləri arasında son Vaşinqton görüşü yaranmış gərginliyi hər hansı şəkildə azaltmağa kömək etməyib. Bu səbəbdən bölgədə vəziyyətin saatlar ərzində dramatik şəkildə dəyişə biləcəyi bir məqamda nazirlərin və rəhbərlərin danışıqlarının davam etdirilməsi çox əhəmiyyətlidir. Söhbət bölgənin qonşuluğunda ABŞ-İran münasibətləri, Gürcüstanda proseslərin inkişafı və gürcü-rus münasibətlərindəki gərginlikdən gedir. Bu, bölgədə zəncirvari bir-biri ilə bağlı olan hadisələrdir və biri digərinə təsir edə bilər. Qeyd etdiyim kimi, Qarabağ münaqişəsi öz xüsusi dinamikası olan münaqişədir. Bu günlərdə ölkələrin təhlükəsizliyi və diplomatiyası bölgədə və Qarabağ münaqişəsi zonasında olan təhlükələri dərk edərək, daha ağır şəkildə işləməlidir. Xüsusən də Gürcüstandakı hadisələr fonunda".

Maraqlıdır ki, Ermənistanın sabiq baş naziri Qrant Baqratyan da məsələyə eyni prizmadan yanaşır. Onun sözlərinə görə, Gürcüstan-Rusiya münasibətləri daha da kəskinləşə və Ermənistana doğru istiqamətlənən quru yolu bağlana bilər: "Gürcüstanda baş verənlərin ağır nəticələri ola bilər. Azərbaycan kəşfiyyatı indi iş başındadır. Onlar quru yollarının bağlanmasına nail olmaq məqsədilə Gürcüstan-Rusiya münasibətlərini daha da kəskinləşdirməyə çalışırlar. Nəhayət, yekunda gürcülər sakitləşəcək. Lakin nəticədə Ermənistana doğru aparan yük yolları bağlanacaq. Bundan sonra Azərbaycan Ermənistana müharibə təklif edəcək".

Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da etiraf edir ki, Rusiya-Gürcüstan və ABŞ-İran münasibətləri ətrafında vəziyyət Ermənistan üçün ciddi problemlər yaradır: "Rusiya-Gürcüstan münasibətlərində gərginlik Ermənistanın maraqlarına uyğun deyil. Biz çox narahatıq. Rusiya bizim müttəfiqimiz və qardaş ölkəmizdir. Gürcüstan bizim qonşumuz və həmçinin qardaş ölkəmizdir". Onun sözlərinə görə, sözügedən vəziyyətdən Ermənistan heç bir dividend əldə edə bilməz. Hazırkı proseslər həm iqtisadi, həm də siyasi planda mənfi təsirlərlə müşahidə edilə bilər. Moskva ilə Tiflis arasında yaranmış gərginlik barədə danışan Şarmazanov Rusiya tərəfində heç bir səhv görmədiyini qeyd edib:"İstənilən təşkilatçı ölkə öz ərazisindəki tədbir zamanı təhlükəsizliyi təmin etməlidir". O bildirib ki, İrəvanda Azərbaycan nümayəndələrinin iştirakı ilə dəfələrlə tədbir keçirilib və bənzər proseslər yaşanmayıb. Öz növbəsində erməni deputatlar da Bakıya səfər edib və burada da ciddi insidentlər qeydə alınmayıb. "Gürcüstandakı vəziyyətə ABŞ-İran münasibətlərindəki gərginliyi də əlavə etsək, belə çıxır ki, Ermənistanın şimal və cənub sərhədlərində ciddi problemlər yaranıb. Hazırkı hakimiyyət çox çətin geosiyasi vəziyyətdədir".

Xatırladaq ki, söhbət Gürcüstanda parlamenti sədrinin istefa verməsi ilə nəticələnən Rusiya əleyhinə keçirilən nümayişlərdən gedir. Düzdür, Azərbaycan burada heç də gürcüləri ruslara qarşı qoymaq üçün fəaliyyət göstərmir. Amma yuxarıda səslənən fikirlərdən bəlli olur ki, Rusiya və Gürcüstan arasında münasibətlər kəskinləşsə, Ermənistan çətin vəziyyətdə qalacaq. Ən azından, quru yol vasitəsilə Rusiyadan Ermənistana yükdaşımalar çətinləşəcək. Bu isə Rusiyadan əhəmiyyətli dərəcədə asılı olan Ermənistan üçün böyük zərbə deməkdir.

Xatırladaq ki, Ermənistanın Rusiyaya yeganə birbaşa quru yolu Gürcüstandakı Yuxarı Larsdan keçir. Yuxarı Lars nəzarət-buraxılış məntəqəsinin bəzən birgünlük belə bağlanması Ermənistan üçün dəhrəl böyük problemlər yaradır. İndi Ermənistanın qorxusu Rusiya və Gürcüstan arasında yenidən münasibətlərin gərgin həddə çaat bilməsi və bunun İrəvana böyük iqtisadi zərbələr vurmasıdır. İndilikdə Moskva və Tiflis arasında münasibətlər getdikcə daha gərgin mərhələyə yönəlir və İrəvan qoxmaqda haqlıdır. Qeyd edək ki, bir neçə gün əvvəl rusiyalı deputat Sergey Qavrilovun gürcü parlamentində çıxışı zamanı minlərlə gürcü küçələrə axışaraq qanunverici orqanın binasına hücum çəkib. Bunlara səbəb Sergey Qavrilovun Gürcüstan parlamenti spikerinin kürsüsündə əyləşməsi və həm də rus dilində Parlamentlərarası Pravoslav Assambleyasının yığıncağını aparması olub. Rus deputatlara qarşı sərt münasibət fonunda onlar təcili surətdə Tiflisin "Radisson" otelini tərk edib, polis qoruması altında aeroporta qaçmağa məcbur olublar. Prezident Salome Zurabişvili və baş nazir Mamuka Baxtadze baş verənlərdə rusiyanı günahlandırıb. Zurabişvili qeyd edib ki, cəmiyyətin iki düşərgəyə bölünməsi Rusiyadan başqa heç kimə lazım deyil. Kreml isə olanlara sərt reaksiya verərək, artıq Gürcüstana qarşı təzyiq rıçaqlarını işə salıb. Amma separatçı rejimlər vasitəsilə Gürcüstanın hərbi müstəvidə də sıxışdırılması istisnalıq təşkil etmir. Bəzi gürcü ekspertlər də vurğulayır ki, hazırda Rusiyaya lazım olan şey qanlı münaqişədir. O halda Rusiyanın Gürcüstanı 2008-ci illə müqayisədə daha amansızlıqla əzməsi istisna olunmur. Elə işğalçı Ermənistanı qorxudan başlıca məqamlardan biri də məhz hadisələrin bu istiqamətdə inkişaf edə biləcəyidir. Çünki Tiflis - Moskva münasibətləri Gürcüstan ərazisindən Ermənistana Rusiya yüklərinin daşınmasını mümkünsüz hala gətirəcək. Bunun Ermənistan üçün hansı böyük fəsadlar yaratması isə 2008-ci ildə də açıq müşahidə olunmuşdu. Yuxarı Larsda istənilən ləngimə Ermənistan iqtisadiyyatına böyük zərbədir. Belə vəziyyətdə Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəviyə keçməsi isə Ermənistanın daha qısa müddətdə çökməsi anlamına gəlir.




Hadisələrin bu istiqamətində mümkün inkişafı, əslində ermənilərı çoxdan narahat edir. Elə buna görə erməni tərəfi, uzun müddətdir ki, Abxaziyadan keçən və Rusiyanı Ermənistanla birləşdirən dəmir yolunun açılmasına çalışır. Bu dəmir yolunun açılması 2012-ci ildə Gürcüstanda "Gürcü arzusu" koalisiyasının hakimiyyətə gəlişindən sonra bir neçə dəfə gündəmə gətirilib. Rusiya bu dəhlizi açmaq üçün Gürcüstana təzyiqlər də göstərib. Gürcüstan tərəfi Abxaziya dəmir yolunun açılmasına dair bir neçə dəfə qeyri-rəsmi müzakirələr aparsa da, rəsmi mövqe belədir ki, Abxaziyanın de-fakto işğalına son qoyulmadan bu mümkün olmayacaq. Gürcü ekspert Mamuka Areşidze hesab edir ki, erməni tərəfinin istədiyi bu yolun açılması yaxın tezlikdə mümkün deyil: "Elə 2008-ci ilin avqust müharibəsinin əsas məqsədlərindən biri həm də Ermənistana quru dəhlizi açmaq vəzifəsi ilə bağlı idi. O vaxt ermənilər bunu çox istəyirdilər, rusların bu istiqamətdə həvəsləndirməyə çalışırdılar. Amma beynəlxalq ictimaiyyətin səyləri sayəsində Rusiyanı dayandırmaq mümkün oldu. Buna qədər isə ruslar Kaxetiya yoluna çıxaraq oradan Ermənistana, Gümrü bazasına gedən yeganə magistral yola nəzarət etmək istəyirdilər. Bizim 20 faiz ərazilərimizi zəbt etməsinə baxmayaraq, Kreml öz hədəfinə çatmayıb. Elə Ermənistan da Rusiya ilə etibarlı quru əlaqəsinə malik deyil".

Erməni ekspert Stepan Danielyan da indiki vəziyyətdə durumu şərh edərək vurğulayır ki, yaxın gələcəkdə Gürcüstan vasitəsilə Rusiyaya aparan alternativ yollar və Abxaziyadan keçən dəmir yolunun fəaliyyətə başlaması perspektivi ilə xudahafizləşmək olar: "Bu, Ermənistan baxımından belədir. İndi isə daha böyük oyun haqqında məlumat verim. Niyə Ermənistanın baş naziri Nikol Paşinyanı aparıb Rusiya və Çin rəhbərlərinin yanında oturtmuşdular? Bu məsələ Ermənistanda səsləndirilmədi. Başa düşmək lazımdır ki, Ermənistan bu iki ölkə və coğrafi məkan üçbucağının cızılması üçün coğrafi nöqtə olaraq təqdim olunurdu. Ermənistan nümayəndəsi də İran və Gürcüstan kommunikasiya əlaqələrinin yaradılması haqqında danışırdı. Bundan əvvəl Ermənistanın nümayəndəsi də, şəxsiyyətindən asılı olmayaraq, Çində hörmətlə qəbul edilib. Yəqin indi Gürcüstanda nəyin və nə üçün baş verdiyi başadüşüləndir. Kommunikasiyaların yaradılması və ya onların yaradılmasına maneçilik törədilməsi geosiyasi yarışın oyun taxtasının düzülüşündən asılıdır. Ermənistan yenə tranzit xətlərdən kənarda saxlanır. Regionda bu istiqamətdə ən pis vəziyyət məhz Ermənistana aiddir".

Bütün bunlar fonunda Gürcüstandan keçən quru əlaqəsinin Moskva və Tiflis arasında gərginlik üzündən dayana biləcəyi Ermənistanı çox ciddi surətdə əndişələndirir. Eyni zamanda yuxarıda səslənən fikirlərdən bəlli olur ki, məhz bu şəraitdə Qarabağ münaqişəsinin yenidən alovlanması da Ermənistanın ən böyük qorxularıdan biridir. Çünki bu halda Ermənistan daha qısa müddətdə çökəcəyini yaxşı bilir.

Ermənistanın "Arabo" cinayətkar dəstəsinin komandiri Manvel Yeqiazaryan "armlur.am" xəbər agentliyinə müsahibəsində təsdiq edir ki, kənardan iqtisadi və digər yardımlar olmadan Azərbaycanla savaş aparmaq müşkül məsələdir. O, indiki halda Azərbaycanın iqtisadi cəhətdən Ermənistanı daha sürətlə çökdürmək istiqamətində addımlar atdığını da açıq vurğulayır. Məsələn, qeyd edir ki, Azərbaycan təlimlər keçirməklə öz qüvvəsini göstərməyə çalışır, eyni zamanda Ermənistanı da təlimlər keçirməyə məcbur etmək istəyir: "Çünki bu təlimlər böyük vəsait tələb edir. Onlar çox yaxşı bilir ki, Azərbaycan və Türkiyəyə nisbətən Ermənistan çox kasıb ölkədir. Bu təlimlər Ermənistana daha çox mənəvi və iqtisadi zərbələr vurur". Yeqiazaryan bildirib ki, bu gedişlə Azərbaycanın iqtisadi pressinqləri qarşısında tab gətirmək daha çətin olacaq. Onun sözlərinə görə, Ermənistandan fərqli olaraq, Azərbaycanın Gürcüstan vasitəsilə dünya bazarlarına çıxması heç vaxt problem olmayıb. Hətta 2008-ci ildə də bu istiqamətdə hansısa problem yaranmayıb. Amma Ermənistan prizmasından vəziyyət tamam fərqlidir və elə bu səbəbdəndir ki, Rusiya və Gürcüstan arasında gərginliyin artdığı bir vaxtda Dağlıq Qarabağ münaqişəsinin yenidən başlama ehtimalı Ermənistanda əsl vahimə yaradır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Məlum olduğu kimi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev Ukrayna Milli İnvestisiya Şurasının üzvü seçilib. Ukrayna Prezidenti Vladimir Zelenski bununla bağlı müvafiq fərman imzalayıb. Ukrayna Prezidentinin fərmanına əsasən, şuraya onunla birlikdə 29 nəfər daxil olub.**

# Rövnəq Abdullayevin Ukrayna Prezidenti yanında yeni vəzifəsinin Azərbaycana nə faydası...

## *Əli Əlirzayev: "Bu, Azərbaycanın beynəlxalq imicinə müsbət təsir edən hadisədir"*



Onlardan 10 nəfəri Ukrayna hökumətinin nümayəndələridir. Qalan 19 nəfər isə beynəlxalq şirkətlərin və maliyyə təşkilatlarının rəhbərləridir.

Şuraya Ukrayna Prezidentinin özü rəhbərlik edəcək. "Xalqın xidmətçisi" partiyasından deputatlığa namizəd, beynəlxalq "Template Monster" IT şirkətinin həmtəsisçisi David Araxamiya Şuranın katibi təyin edilib. İnvestisiya Şurasına Prezident Administrasiyası rəhbərinin müavinləri Aleksey Qonçaruk və Vadim Pristayko, Prezidentin köməkçisi Andrey Yermak və müşaviri Oleq Ustenko daxil olublar.

Razılıq əsasında Şuraya Ukrayna və xarici təşkilatların, işgüzar dairələrin nümayəndələri, sərmayələrin cəlb edilməsi, sahibkarlığın inkişafı məsələləri üzrə ekspertlər, iqtisadiyyat və maliyyə sahəsində mütəxəssislər daxildirlər.

Məsələn, Şuraya "Sumitomo Soqr" şirkətlər qrupunun baş direktoru Kuniharu Nakamura və "Marubeni Corporation" Direktorlar Şurasının sədri Fumiya Kokubu (hər ikisi Yaponiya), "Posco Daewoo Corporation"ın baş direktoru Kim Yanq-Sanq (Koreya), "DP World" şirkətlər qrupunun baş direktoru Sultan Əhməd bin Sulayem (BƏƏ), "Turkcell İletişim Hizmetleri A.Ş."-nin İdarə Heyətinin sədri Əhməd Akça (Türkiyə) və SOCAR-ın prezidenti Rövnəq Abdullayev daxil olublar.

SOCAR prezidenti Rövnəq Abdullayevin Ukrayna Milli İnvestisiya Şurasının üzvü seçilməsinin ümumən Azərbaycana nə faydası olacaq?

**Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayev buna bir neçə aspektdən yanaşdı:** "Məsələ ondadır ki, bu, idarəetmənin bir formasıdır. Elə layihələr var ki, onlar beynəlxalq səviyyəli layihələrdir. Həmin layihələrdə başqa ölkələrin imkanlarından, resurslarından, təcrübəsindən istifadə etmək olar.

*"Ölkəmizin əldə etdiyi təcrübədən faydalanacaqlar"*

Azərbaycanla Ukrayna bir-birilə qarşılıqlı iqtisadi əlaqədə olan və yaxşı münasibətlərə malik ölkələrdir. Ukraynanın inkişafı ilə bağlı bir sıra qərarlar qəbul edəndə Azərbaycanın da mövqeyini nəzərə alacaqlar. Ölkəmizin əldə etdiyi təcrübədən faydalanacaqlar.

**Bunun özü mühüm hadisədir. Ukrayna Milli İnvestisiya Şurasında Cənubi Koreyanın, Türkiyənin, Birləşmiş Ərəb Əmirliklərinin nümayəndələri təmsil olunurlar. Əlbəttə ki, Azərbaycan adından SOCAR prezidentinin orada olması müsbət haldır.**

Bu, Azərbaycanın beynəlxalq imicinə müsbət təsir edən hadisədir. O baxımdan buna müsbət yanaşıram. Hesab edirəm ki, bütün mənalarda ölkəmiz üçün faydalı olacaq".

*Vidadi ORDAHALLI*

**Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar imzaladığı sərəncamlar ölkə vətəndaşlarının maddi vəziyyətinin yaxşılaşdırılması üçün atılan çox mühüm addımdır. Məsələ ondadır ki, sosial islahatlar paketi cari ildə əhalinin sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayacaq.**

# Son islahat paketləri Azərbaycanı kəskin sosial təbəqələşmədən qorumaqda da təsirli rol oynayır...

## *Aydın Hüseynov: "Artımlar qoymur ki, vətəndaşlar arasında sosial təbəqələşmə yaransın və yaxud da dərinləşsin"*



Bu il martın 1-dən həm minimum pensiyalar, həm də minimum əməkhaqqının məbləği orta hesabla 40 faiz artırılıb. Aparılan islahatlar nəticəsində tətbiq edilən artımlar həm minimum əməkhaqqı, həm də minimum pensiyalar sahəsində minimum standartlara çatmağa imkan yaradıb. Çünki dövlət başçısının iyunun 18-də imzaladığı sərəncamlarla 1 milyon 350 min insanın əməkhaqlarında ciddi artımlar edilir. Eyni zamanda, minimum əməkhaqqının artımı məqsədilə imzalanan sərəncamla Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılmaqla 180 manatdan 250 manata çatdırılacaq. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilir. Bu artım birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Onu da qeyd edim ki, bununla bu il ərzində minimum əməkhaqları artıq ikinci dəfə ciddi şəkildə artır.

Həmçinin, pensiyaların minimum məbləği oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq. Bu, təxminən 25 faiz artım deməkdir. İlkin hesablamalara görə, yeni artım 660 mindən çox pensiyaçını əhatə edəcək. Nəticədə ölkədə bu il oktyabrın 1-dən 200 manatdan aşağı pensiya alan vətəndaş olmayacaq.

Ölkə başçısının bununla bağlı qərarlarını təhlil edəndə məlum olur ki, islahatlar bütün sahələri əhatə edir və kompleks şəkildə sosial siyasət həyata keçirildiyini sübut edir. Ən başlıca məqamlardan biri ondan ibarətdir ki, minimum əməkhaqqı və pensiyaların artırılması cəmiyyətdə kəskin sosial təbəqələşmənin dərinləşməsinin, bununla bağlı meyllərin qarşısını alır. Bundan əvvəl bir sıra sosial müavinətlərin əhəmiyyətli şəkildə artırılması da sözügedən məsələdə mühüm rola malikdir.

Maraqlıdır, bəs ekspertlər son artımların cəmiyyətdə kəskin sosial təbəqələşmənin qarşısının alınmasında rolunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, artımlar sosial təbəqələşmənin qarşısını alır:** "Bununla bağlı görülən işlər göz qabağındadır. Bu ilin fevralında minimum əməkhaqqı 180 manata qaldırıldı. Bu günlərdə Prezident İlham Əliyevin imzaladığı sərəncamla minimum əməkhaqqı 250 manata çatdırıldı. Bu, Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşmasına böyük töhfə verəcək. 2019-cu ildə Prezident tərəfindən xalqın rifahının yaxşılaşdırılması istiqamətində çox mühüm addımlar atılıb. Cari ildə minimum əməkhaqqı, pensiyalar, tələbələrə verilən təqaüdlər artırılıb.

*"Bu, insanlara maliyyə dəstəyi olmaqla yanaşı, həm də bir mənəvi dəstəkdir"*

Problemli kreditlərin həlli və digər sosial məsələlərlə bağlı mühüm fərman və sərəncamlar imzalanıb. Minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Həmçinin, bilirsiniz ki, minimum pensiyaların məbləği artırılaraq 200 manata qaldırılıb. Bütün bunlar vətəndaşların ailə büdcəsinin zənginləşməsi və alıcılıq qabiliyyətinin artması deməkdir.

**Çünki ailə büdcəsi zənginləşdikcə, alıcılıq qabiliyyəti artır. Nəzərə alsaq ki, sosial müavinətlər, minimum əməkhaqqı və pensiyalar əhəmiyyətli dərəcədə artırılır, o zaman bütün bunlar cəmiyyətdə sosial təbəqələşmənin qarşısını alır. Qoymur ki, vətəndaşlar arasında sosial təbəqələşmə yaransın və yaxud da dərinləşsin. O baxımdan son sosial paketin əhəmiyyətini yüksək dəyərləndirirəm. Bu yöndə atılan addımlar çox önəmlidir. Eyni zamanda, bu, insanlara maliyyə dəstəyi olmaqla yanaşı, həm də bir mənəvi dəstəkdir".**

*Vidadi ORDAHALLI*

**"Biz Vətənimizi, Yerevanımızı, Qars və Vanımızı, Bitlisimizi yaratmalıyıq." (Levon-Karapet Palçyan (I Vazgen), 1908-1994, Erməni Apostol kilsəsinin baş patriarxı, bütün ermənilərin 1956-1994-cü illərdə 130-cu katolikosu.)**

**(V məqalə)**

# Şərqi Afrika təbiətinin hay sürüsünün (qəbilə-tayfa birliklərinin) etno-morfogenezisinə təsiri

Afrika qitəsi, xüsusilə onun ilk insan məskənləri hesab edilən Şərq hissəsi (Həbəşistan və Keniya dağlıq yaylaları, Nil (Ağ Nil), Omo və Tana çayı hövzələri, Viktoriya gölü sahilləri, Qırmızı dənizin qərb sahilləri, Nubiya və Ərəbistan səhraları...) qədim insan yaşayış məskənlərinin coğrafi məkanı kimi qiymətləndirilsə də, həm də Asiya qitəsində ona bitişik Yaxın və Orta Şərq ərazilərinin ilk ibtidai insan yaşayış məskənlərinin-tayfa ittifaqlarının (dövlət birliklərinin) təkamülündə böyük rol oynayıb. Eramızdan əvvəl X-V əsrlər dövrü ibtidai insan cəmiyyətinin təkamülü-dövlət quruculuğu istiqamətində qaynar yenilənmə mərhələsi, eləcə də Roma-Bizans-Babil-Misir hakimiyyəti dövrlərinin Afrika qəbilə-tayfa birliklərinə təsiri qədim Roma və Yunan alimlərinin, Şərq-Ərəb mütəfəkkirlərinin əsərlərində qeyd edilib. Belə ki, bu ərazilərdə baş verən təbii-coğrafi, ictimai-sosial və hərbi təlatümlərin gedişini yazılı mənbələrdən (Homerin "İlliada" və "Odisseya ("Efiopida" hissəsi)" poemalarında həbəşlərlə bağlı döyüş səhnələrindən, Appianın "Roma tarixi", Herodotun "Tarix" (III), Strabonun "Coğrafiya" (II), Aristotelin "Heyvanların tarixi" (VIII,12) və Diodorun "Sivilizasiyanın yaranması" (III) kitabları, ərəb tarixçiləri Fuad Həsən Hafizin "Əvvəldən bu günədək erməni tarixi" və Mərvan əl-Mudavərin əsərlərində...) öyrəndikcə həmin dövrün bir çox təbii hadisələrinin və tariixi-ictimai inkişaf istiqamətlərinin ayrı-ayrı yerli və gəlmə etnobirliklərin morfoloji və etimoloji xüsusiyyətlərinə, dini-həyat tərzinə təsirinin özəl xüsusiyyətlərini təhlil etmək mümkün olub. Müasir dövrdə hay mənşəli alimlər də əsərlərində (Yerevan Dövlət Universitetində 1980-ci ildə nəşr edilən "Erməni xalqının tarixi" əsərində (rus dilində, professor M.Q.Nersisyanın redaktorluğu ilə Ermənistan EA-nın müxbir üzvü, prof. Q.X.Sarkisyan, professorlar T.X.Akopyan, A.Q.Abramyan... tərəfindən) qeyd edilib ki, eramızdan əvvəl II-I minilliklərdə Aralıq dənizinin şərq sahillərində (öz dillərində "Ermənistan dağlıq yaylasında" - müəllif) formalaşan hayların etnogenezisində bu əraziyə başqa yerlərdən köçüb gələn tayfa, etnik birliklərin rolu böyük olub. Bu mülahizələri əsaslandıran bir cəhət də Bizans-Ərəb hökmdarlarının Misir və Həbəş hərbi yürüşlərində iştirak etmiş finikiyalı, hay, kopt və həbəş döyüşçülərinin bu regoinda məskunlaşması və yunan sərkərdələrinin dəstələrində həbəş-hay (tiqran, tiqrau, amxara...tayfa üzvlərinin) döyüşçülərindən həm də kəşfiyyat məqsədləri üçün (Afrika təbiətinə bələd olduqlarına görə) istifadə etmələridir. Nəticədə hərbi yürüşlərdən sonra muzdlu döyüşçülərin bir hissəsi Misir ərazisində, Finikiya və Fələstin dövlətlərində, Dəclə və Fərat çayları hövzəsində, İran dağlıq yaylasında, bir hissəsi isə Frakiyada (Balkan yarımadasının cənubunda), Krit və Kipr... adalarında məskunlaşıb, yerli xalqlarla qaynayıb-qarışaraq öz ilkinliyini də qoruyub saxlayıblar. Bu sırada hay ibtidai insan sürüsü istisnalıq təşkil etməyib.

Göründüyü kimi, yuxarıda göstərilən mənbələrdə qədim dövlətlərin yaranma və inkişaf tarixi, müasir xalqların formalaşma mərhələləri ilə bərabər həm də Afrika qitəsində ibtidai insan birliklərinin, qədim insan cəmiyyətlərinin inkişaf xüsusiyyətləri, etnik xalq birliklərinin paylanması və miqrasiyası, qəbilə və tayfaların morfo-etnogetik strukturunun assimilyasiyası, təbii və ictimai təsir amilləri nəticəsində dəyişilməsi və dəyişilməzliyi, bu təsirlərin qiymətləndirilməsi ... kimi cəhətlər də nəzəri cəlb edir. Məhz bu amillər təhlil edilməklə həm də bu ərazilərdə formalaşmış ilkin hay ibtidai insan sürüsünün (hay qəbilə-tayfa icmasının) davranış-həyat tərzinin özəlliklərinin və etno-morfo mənşəyinin öyrənilməsi xüsusi maraq doğurur.

Təbii ki, həmin dövrlərə dair elmi-fəlsəfi və didaktik-poetik qədim roma və yunan alimlərinin əsərləri ilə yanaşı iudizm və xristianlığın dini-mifoloji hökmlərini (strukturunu) ehtiva edən "Bibliya" da ("Əhdi-Ətiq" və "Əhdi-Cədid" bölümləri ilə birlikdə) Afrika qitəsinin, Yaxın və Orta Şərq ölkələrinin təbiətinin, coğrafi ərazi və məkan şəraitinin, etnik qəbilə-tayfa birliklərinin həyat tərzinin və dünyagörüşünün... təsviri və qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Düzdür, "Bibliya"da haylar, onların uydurma əraziləri və iddia etdikləri "Böyük Ermənistan", "Ararat zirvəsi", "Ermənistan dağlıq yaylası" kimi xülyaları barədə bir kəlmə də işlənməsə də, hayların ilkin ocaqları olmuş Şərqi Afrika əraziləri, o yerlərlə bağlı tarixi, dini-fəlsəfi və mifoloji məlumatlar verilib.

Ümumiyyətlə, Afrika qitəsində 500-dən 8500-dək xalq və etnik qruplar (birliklər) mövcuddur, onlar ərazi baxımından 2 etno-tarixi hissəyə ayrılır: Şimali və Tropik Afrika. Sonuncu etno-tarixi zonaya həm də Şərqi Afrika (sahil və göllər ərazisi daxil omaqla) və Şimal-şərqi hissələr daxildir ki, məhz bu zonalarda əski protohay (qədim terras əkinçiliyinin və xristianlığın, ilk yazı və əlifba mədəniyyətinin daşıyıcıları olmuş amxara, tiqre, tiqrau, tiqran, hayrari... qəbilə-tayfa sürüləri) ibtidai insan qrupları geniş ərazilərdə paylanıb. Ona görə də bu protohay ibtidai insan sürülərinin dini-mifoloji xüsusiyyətləri indiki hay sürüsünün etno-morfo gen yaddaşı ilə müqayisə edilə bilər. Çünki, e.ə. III-II minilliklərdə Şərqi Afrikanın təbii-coğrafi landşaft xüsusiyyətlərinin özəlliyi (quru və isti iqlimin təsiri ilə aclıq-quraqlığın törətdiyi yığıcılıq və qarət hissi, mağara-vadi məskənlərinin tez-tez dəyişilməsin nəticəsində qonşu ərazilərin zəbt-qəsb edilməsi instinkti, yırtıcı vəhşi heyvanlardan qorunmaq üçün barbar savaş üsullarının seçilməsi...) protohay sürüsündə yarandığından, minilliklər boyunca onların gen və qan yaddaşı bu amillərdən xilas ola bilməyib.




Bu amillər e.ə. XII-II əsrlər dövründə Afrika qitəsində hökm sürən Finikiya-Karfagen sivilizasiya mərhələsində də öz ilkinliyini qoruyb saxlayıb.

Şərqi Afrika qəbilə-tayfa birliklərinin morfo-etno xüsusiyyətlərinin tədqiqi ilə məşğul olan Qərbi Avropa və rus-sovet tədqiqatçılarının, yazıçı və səyyahlarının qənaətinə görə, bu qəbilə birliklərində gen-qan yaddaşının güclü olması və minilliklər boyunca qorunub saxlanmasına səbəb ilk növbədə onların sivil cəmiyyətlərdən kənar olması ilə bərabər, həm də sərt iqlim-relyef amillərinin qarşılıqlı təsiri mühüm olub.

Təbii ki, bu məsələlərin araşdırılması çoxşaxəli elmi-nəzəri tədqiqat və arxeoloji qazıntı nəticələrinin ümumiləşdirilməsini tələb edir, amma biz bu sahəyə dair bir çox əsərlərdə yer alan məlumatları (Anri Orleanski (1867-1901), Keysli Xeyford Cozef (1866-1930), David Lvinqston (1873-1913), V.V.Yunker (1840-1892); "Afrika (tarixi və tarixçiləri)", 2014; A.B.Davidson (1929), "Afrika ölkələrində tarixi fikrin yaranması"; R.F.Berton (1821-1890) ...) ümumiləşdirərək müvafiq müəyyn mülahizələrimizi nəzərinizə çatdırırıq. Eləcə də, qədim tarixi, yazılı və coğrafi mənbələrin məlumatları əsasında ibtidai hay sürüsünün, qəbilə-tayfa icmasının etnogenezisinin və morfoloji özəl xüsusiyyətlərinin formalaşması baxımından qiymətləndirilməsi ona görə vacibdir ki, indiki hay sürsünün mənəvi-psixoloji, davranış və həyat tərzinin mahiyyətini elmi-nəzəri baxımdan təhlil etməklə düzgün nəticələr əldə etmək mümkün olsun.

Bir cəhəti də qeyd etmək lazımdır ki, ibtidai hay sürüsünün, qəbilə-tayfa birliyinin morfo-etno gen yaddaşının formalaşmasına Şərqi Afrika təbiətinin təsirini aşağıdakı təbii-coğrafi məkan mərhələlərinə ayırmaq olar:

- e.ə. VI-V minilliklər dövründə Həbəşistan dağlıq yaylasının qərb hissəsi - Ağ Nil çayı hövzəsi, Viktoriya gölü sahilləri (qədim koysan, piqmey, bantu, kuşit tayfalarının məskunlaşma və hay sürüsünün toplandığı ərazilərdən biri);
- Keniya dağlıq yaylası ərazisində (Tana çayı hövzəsi) məskunlaşan qədim tiqr, tiqrau, tiqran qəbilələrinin Aralıq dənizinin şərq sahillərindən, Finikiya, Fələstin, İsrail və Misir ərazilərindən, Ərəbistan yarımadasından köç etmələri bildirilir. Onların qədim tarixi-dini dövrlərlə bağlılığı barədə xristianlığın "Əhdi-Ətiq" və "Əhdi-Cədid" kitablarında təsvir edilən hadisələri yaşamalarından bu mülahizələr irəli sürülüb. Bu tayfaların nümayəndələrinin XIX əsrin sonunda ərəb tacirləri ilə Keniyaya gələn avropalılarla birlikdə əməkdaşlıq və onlara qulluq etmələri barədə məlumatlar da kütləvi nəşrlərdə yer alır;
- Viktoriya gölünün şimalında və Omo çayı hövzəsində protohay mənşəli qəbilə-tayfa üzvlərinin (amxara, harari...) etnik adət-ənənələrində, geyimlərində, bayram mərasimlərinin keçirilməsində oxşarlıq və uyğunluq elementlərinin müsir dövrdə hay qəbilə-tayfa sürüsünün milli düşüncə tərzinə bənzərliyi genetik yaddaş təzahürlərinə misal ola bilər (milli paltar və geyimlərində bəzək və naxış elementlərinin təqribən eyni olması və yaxud "hay cəngəvarlərinin qüdrətini artıran iksirin mənşəyinin oxşarlığı", silah işlətmələrində eyni fəndlərin göstərilməsi...)

İlk növbədə ilkin təbii şəraitin (Şərqi Afrikanın) hay sürüsünün (tayfa-qəbilə icmasının) psixoloji-davranış tərzinə müxtəlif aspektdən təsiri diqqət çəkən əsas məqamdır. Bu barədə əvvəlki yazılarımızda bəzi məsələlərə toxunsaq da, bu yazımızda konkret olaraq Qırmızı dənizin qərb sahillərinin və səhra landşaftının (Nubiya və Ərəbistan səhralarının) hay sürüsünün həm də etno-morfogenezisinə təsiri təhlil ediləcək. Çünki bu təsir nəticəsində eramızdan əvvəlki minilliklərdə hay sürüsündə özünəməxsus, digər qəbilə-tayfa toplumdan fərqlənən davranış tərzi (mənəvi-psixoloji, yaşam tələbləri, qida əldə etmək və özünümüdafiə instinktinin güclənməsi, qonşu qəbilə-tayfa icmasına qarşı düşmənçilik hissinin güclənməsi, bu hissin patoloji nifrət səviyyəsinə çatdırılması, nəsildən-nəslə ötürülməsi...) yaranıb. Bu yazımızda hay sürüsündə qonşularına qarşı düşmənçilk hissinin qəbilə-tayfa səviyyəsində nəsildən-nəslə ötürülməsində təbii amillərin təsiri və bu təsirin bu toplumun etno-morfogenezisindəki izləri nəzərdən keçiriləcək. Ona görə də ilk öncə yuxarıda adları çəkilən landşaft elementlərinin ümumi təbii şəraiti ilə tanış olmaq zəruriliyi yaranır, mülahizələrimizi əsaslandırmaq üçün.

Şərqi Həbəşistan yaylasından, Omo çayı hövzəsindən e.ə. II-I minilliklərdə qida çatışmazlığı, iqlim şəraitinin dözülməzliyi, təhlükəsizlik baxımından (yırtıcı-vəhşi heyvanlardan və üsyankar qəbilələrdən qorunmaq üçün) yeni sığınacaq-məskunlaşma ərazisi tapmaq... zəruriliyi nəticəsində çıxan ibtidai hay sürüsünün (tiqr, tiqran, tiqrau, xayas) ilk dayanacağı Nil çayının yuxarı hövzələri, Qırmızı dənizin qərb sahilləri (Somali yarımadasının şimalı) və Nubiya səhrası olub. Yunan-Bizans imperiyası dövrünə aid ədəbi-fəlsəfi və tarixi əsərlərin qədim dövr hadisələrinə aid təsvirlərinə, eləcə də Qərbi Avropa ölkələrinin və MƏR arxeoloqlarının araşdırmalarına görə, köç edən bu qəbilə sürüsü, burada da yerli tayfalarla münasibətləri yaxşı olmadığından, təkrar yerdəyişməyə məcbur olub (indiki Uqanda, Keniya, Cibuti, Somali...ərazilərində). Mütəmadi hal alan bu prosses hay sürüsünün yerləşdiyi ərazilərdə dözümsüzlüyünə, ətrafdakılarına qarşı barışmazlığına, qisasçılıq hissinin və daimi məskunlaşma instinktinin güclənməsinə səbəb olması antik dövr mütəfəkkiri Homerin "İlliada" poemasında yunan-Bizans ordusunun cənubi Misir nomlarına hərbi yürüşlərdə haylardan daha çox istifadə edilməsi səhnəsində təsvir edilib. Belə ki, hay sürsündə məhz bu psixoloji-mənəvi durumu düzgün qiymətləndirən yunan hərbiçilərinin e.ə. VI-V əsrlərdə Nubiya səhrasında keçirdiyi döyüş əməliyyatlarında bu ərazinin təbii şəraitinə yaxşı bələd olan, onu ətraflı tanıyan hay qəbiləsinin üzvlərini döyüşçü-kəşfiyyatçı qismində dəstələrinə daxil edib, sonrakı mərhələdə isə hay sürüsünün hiyləgər, qeyri-səmimi münasibətlərinə inanaraq bir sıra hay qəbiləsini özləri ilə apararaq onları Krit, Kipr adalarında, Frakiya yarımadasında yerləşdirib və növbəti müharibələrdə döyüşçü kimi istifadə ediblər.

Ona görə də hay tayfa sürüsü tarixi keçmişlərindəki Afrika səhifəsinə daha çox diqqət yetirməməklə özlərini Asiya mənşəli, xüsusilə Anadolu və Cənubi Qafqaz əsilli xalqlar sırasında möhürləməyə çalışırlar ki, qəbilə xislətlərinə uyğun gen-yaddaş tələblərinə nail olsunlar, həm də sivil cəmiyyət nümayəndələri kimi tanınsınlar.

Amma "cidanı çuvalda gizlətmək" mümkün olmayıb və olmayacaq...

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Azərbaycanda minimum pensiya MDB-də ikinci səviyyəyə yüksəldi...

**"Azərbaycan minimal pensiya baxımından MDB ölkələri arasında ikinci yeri tutur". Bunu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev BMT-nin Dövlət Xidmətləri Forumunda deyib. Nazir qeyd edib ki, Azərbaycan minimal pensiya baxımından MDB ölkələri arasında ikinci yeri tutur.**

*"Minimum pensiya məbləği növbəti dəfə artırılan zaman daha çox vətəndaşı əhatə etməsi nəticəsində Azərbaycan MDB məkanında öncül yeri təmin etmiş və qorumuş olacaq"*

***Pərviz Heydərov:** "Minimum əməkhaqqının artırılmasına paralel olaraq yaxın müddət ərzində minimum pensiya məbləği 200 manata yüksələcək"*

Ölkə başçısı "Əmək pensiyaları haqqında" Qanuna dəyişikliklər edilməsi ilə bağlı təşəbbüslə çıxış edib.

Məlumat üçün bildirək ki, bu ilin mart ayından etibarən ölkədə minimum pensiya məbləği 160 manat müəyyən olunub. Yaxın müddət ərzində minimum pensiya məbləğinin artırılması gözlənir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı xəbərdə qeyd olunur ki, ölkə başçısının həyata keçirdiyi sosial paketin bir hissəsi kimi, ölkə üzrə minimum əmək pensiyalarının məbləği 160 manatdan 200 manata çatdırılacaq: "Bu artım 25%-lik artım təşkil edəcək və 700 minə yaxın pensiyaçımızın sosial rifahının yaxşılaşdırılmasına dəstək olacaq. Azərbaycanda minimum pensiyanın məbləği bu il oktyabrın 1-dən artırılacaq".

**Azərbaycanda minimum pensiya məbləğinin MDB-də ikinci yer tutmasına münasibət bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, minimum pensiya məbləği cari ilin mart ayından etibarən 160 manata çatdırılıb:** "Bununla da minimal pensiya məbləği ciddi şəkildə artırılmış oldu. Bu addımın atılması ilə Azərbaycan minimum pensiya məbləğinin səviyyəsinə görə MDB məkanında yüksək göstərici ilə seçildi. Bu artım ölkə başçısının il ərzində həyata keçirdiyi sosial paketin tərkib hissəsi idi. Bu artım 233 min nəfəri əhatə etdi. İyunun 18-də isə Prezident İlham Əliyev yenidən minimum əməkhaqqını artırdı. Məlum qərardan sonra minimum əməkhaqqı 250 manata yüksəldi. Minimum əməkhaqqının artırılmasına paralel olaraq minimum pensiya məbləği artırılaraq 200 manata çatacaq. Bu isə o deməkdir ki, 200 mindən çox vətəndaşın pensiya məbləği ciddi şəkildə artırılacaq".



**Həmsöhbətimiz onu da vurğuladı ki, minimum pensiya məbləği növbəti dəfə artırılan zaman daha çox vətəndaşı əhatə edəcək. Bununla Azərbaycan MDB məkanında öncül yeri təmin etmiş və qorumuş olacaq.**

***Günel CƏLİLOVA***

# Azərbaycanda internetin sürətsizliyi - Problemin ABŞ-İran gərginliyi ilə bağlılığı varmı...

**İyunun 24-ü, günün ikinci yarısından başlayaraq, ölkəmizdə internetin sürəti kəskin zəifləməyə başladı. Bununla bağlı narazılıqlar sosial şəbəkələrdə kütləvi şəkildə ifadə olundu. Sonra məlum oldu ki, bəzi internet xəbər saytlarına da girmək mümkün deyil. Bu vəziyyət nisbətən düzəlsə də, internetin sürətindəki problem öz həllini hələ də tapmayıb.**

*"Qlobal dünya ilə əlaqəsi olan həmin iki şirkətin açıqlaması daha məntiqli sayıla bilərdi"*

***Osman Gündüz:** "Ola bilər ki, bu, hansısa xarici serverlərdə yerləşən saytlarımızla bağlı yaşanıb"*

Yaranmış vəziyyətlə bağlı heç bir rəsmi qurum və internet xidməti göstərən provayder açıqlama verməyib. Bu səbəbdən də müxtəlif söz-söhbətlərin meydana çıxmasına rəvac verilib. Qeyd edilir ki, bu problem ABŞ-la İran arasında qarşılıqlı irimiqyaslı haker hücumları ilə bağlıdır. Biz İrana yaxın olduğumuz üçün, problem bizi də əhatə edib. Bu versiyanı nə dərəcədə əsaslı saymaq olar?

"Multimedia" İnformasiya **Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Bakı-Xəbər"ə açıqlamasında bu versiyanı o qədər də inandırıcı saymadığını bildirdi.** Onun sözlərinə görə, baş verən nasazlığın Azərbaycanın daxilindən qaynaqlandığını zənn etmək olmur: "Azərbaycanın internet seqmentini dünyaya bağlayan iki şirkət var. Biz yalnız onların köməyi ilə dünyaya bağlanırıq. Biri "Delta Telekom"dur, digəri isə "Azərtelekom"dur.

Mən bildiyim qədərilə bu şirkətlərdə hər hansı bir problem olmayıb, olsaydı, yalnız informasiya saytlarında deyil, dövlət qurumlarının informasiya resurslarında da müəyyən problem yaşanardı. Bu da olmayıb. Ola bilər ki, bu, hansısa xarici serverlərdə yerləşən saytlarımızla bağlı yaşanıb. Məsələn, bir neçə xəbər saytının hansısa ölkənin serverində yerləşdiyi ola bilər.

Həmin ölkədə internetlə bağlı yaşanan problemin təsirindən eyni anda bizdəki bir neçə sayta giriş çətinləşə bilər. Bu o deməkdir ki, problem qlobal dünyanındır. Onların serverləri, beynəlxlaq şəbəkələri var. Okeanın altı, yerin altı ilə, hava vasitəsilə keçən xətlər var. Bu, konkret şəbəkələrin problemidir. Ola bilsin ki, konkret hansısa serverdən qaynaqlanır. Bizim adını çəkdiyim iki provayder mütləq bu barədə açıqlama verməliydi. Qlobal dünya ilə əlaqəsi olan həmin iki şirkətin açıqlaması daha məntiqli sayıla bilərdi. Çünki onların dünya şəbəkəsi üzrə düzgün monitorinq aparmaq imkanları genişdir.



Eyni zamanda, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin də bu mövzu ilə bağlı bir ağlabatan açıqlama verməsi doğru olardı.

**Bir daha qeyd edirəm ki, İranla ABŞ arasında qarşılıqlı haker hücumunun aparılması mümkündür. Ancaq bundan hansı serverlərin ziyan gördüyü ilə bağlı informasiyanı bizə dediyim qaynaqlar verə bilər".**

***Məhəmmədəli QƏRİBLİ***

# Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Qaçqın və məcburi köçkünlər. Bu cümlə erməni kimi xisləti pozuq, insanlığa düşmən kəsilən bir xalqın qonşusu olmağın ağrılarını hər kəsdən yaxşı bilən, nankor ermənilərin tarixdə olmazın mənfurluqlarına şahid olan Azərbaycan xalqı üçün ağır və həm də yaralı bir cümlədir.**

Bu cümlənin içində elobasından didərgin düşmüş yüz minlərlə insanın acı taleyi, erməni faşistləri tərəfindən 20-ci əsrin əvvəllərindən bəri minlərlə azərbaycanlı körpənin şişə çəkilmiş cəsədi, qanına qəltan edilmiş qoca və qadınların ah-naləsi gizlənir.

Məlumdur ki, 1988-ci ildən xalqımıza qarşı aparılan erməni terroru isə onunla nəticələndi ki, yüz minlərlə soydaşımız doğma yurdlarından didərgin düşdü, bir çoxları isə erməni faşizminin 20-ci əsrdəki vəhşi daşnak siyasətinin qurbanına çevrildi.

Məhz mərhum prezident Heydər Əliyev xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra qaçqın və məcburi köçkünlərin problemləri diqqətdə saxlandı, onlara dövlət qayğısı geniş vüsət aldı. Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində öz ata-baba yurdlarından didərgin düşmüş soydaşlarımızın qayğıları Heydər Əliyevin ən çox diqqət göstərdiyi məsələlərdən biri olub. H.Əliyev xarici səfərləri zamanı qaçqın və məcburi köçkünlərin vəziyyətini dünya ictimaiyyətinə daim çatdırırdı.

Bu təbəqədən olan insanlara qayğı və diqqət göstərilməsi bu gün də davam edir. Qaçqın və məcburi köçkünlərin sosial təminatının yaxşılaşdırılması Prezident İlham Əliyevin fəaliyyətinin mühüm istiqamətini təşkil edir.

Ötən illər ərzində məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, həmçinin, onlara güzəşt və imtiyazların verilməsinə yönəlik normativ-hüquqi aktlar qəbul edilib. Qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşması istiqamətində dövlət tərəfindən humanist addımlar atılır.

Məlumat üçün bildirək ki, Prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiqlənən "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilən mühüm əhəmiyyətli sənəddir. Sözügedən sənədin qəbulu bu sahədə ciddi keyfiyyət dəyişikliklərinin əldə edilməsinə səbəb oldu. 2007-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə proqrama edilən əlavələr bu kateqoriyadan olan insanların yeni mənzillərlə təminatında xüsusi mövqeyi ilə seçildi. Bu sahədə mövcud problemlərin həllini sürətləndirmək məqsədilə Prezident İlham Əliyevin fevralın 21-də məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında imzaladığı sərəncam qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasında strateji əhəmiyyəti ilə diqqəti çəkir.

Danılmaz faktdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı nəticəsində qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülüb və bu işlərin növbəti dövrlərdə də davam etdirilməsi nəzərdə tutulur.

### Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər

Məlum olduğu kimi, bir müddət əvvəl Prezident İlham Əliyev məcburi köçkünlərə və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin müəyyən edilməsi haqqında fərman imzaladı. Bundan əvvəl də dövlət başçısı Qarabağ müharibəsi zamanı öz yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızla bağlı bir sıra fərman və sərəncamlar imzalayıb. Son 10 ildə qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Həmin müddətdə qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması ilə bağlı Prezident tərəfindən 50-dən çox fərman və sərəncam imzalanıb, "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", həmin Proqrama 2 əlavə təsdiq edilib. Dövlət büdcəsindən ayrılmış vəsait hesabına məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 3,5 dəfə artırılıb. Son 10 ildə dövlət ali məktəblərində ödənişli əsaslarla təhsil alan 8 min 700 məcburi köçkün tələbənin təhsil xərcləri dövlət büdcəsi vəsaiti hesabına ödənilib. Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə 3,8 milyard manat vəsait sərf edilib. Həmin vəsaitin 1,7 milyard manatı dövlət büdcəsinin, 1,4 milyard manatı Dövlət Neft Fondunun, 378 milyon manatı isə digər təşkilatların payına düşür. Hazırda bir nəfər məcburi köçkünə il ərzində xərclənən vəsaitin məbləği 1100 manat təşkil edir ki, bu da dünyanın digər münaqişə zonaları ilə müqayisədə ən yüksək göstərici olmaqla, 2003-cü ildəkinə nisbətən 9 dəfə çoxdur. Məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 15 faizədək azalıb. Son 18 il ərzində qaçqın və məcburi köçkünlər üçün respublikanın 30-dan artıq şəhər və rayonunda bütün sosial-texniki infrastruktura malik 102 müasir qəsəbə salınıb ki, bunun da 3-ü ötən il istifadəyə verilib. Ötən il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilərək istifadəyə verilib. Bu, son illər ərzində rekord göstəricidir. Evlər, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı artıq 300 minə çatır. Bu da 55 min ailə deməkdir. Ümumilikdə, bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manatdan artıq vəsait xərclənib. Dünyada Azərbaycan kimi ikinci ölkə yoxdur ki, qaçqın və məcburi köçkünlərin sosial məsələlərinə diqqət yetirsin.



### Heydər Əliyev Fondunun qaçqın və məcburi köçkünlərə qayğısı

Onu da bildirək ki, ötən iki ildə minlərlə məcburi köçkün ailəsi məhz Mehriban Əliyevanın təşəbbüsü ilə yeni mənzillərə köçürülüb. Aprel döyüşlərində hərbi rəşadət göstərmiş döyüşçülərin nümayəndələri ilə görüşü isə Birinci vitse-prezident olaraq Mehriban Əliyevanın respublikamızda həssas təbəqədən olan insanların, əlilliyi olan şəxslərin sosial müdafiəsinə, reabilitasiya və cəmiyyətə inteqrasiya məsələlərinə xüsusi diqqətinin əyani göstəricisidir. Bununla bağlı həyata keçirilən layihə çərçivəsində döyüşlərdə xəsarət almış əsgər və zabitlərimiz dünyanın müasir protez istehsalçıları olan Almaniyanın, İslandiyanın, İngiltərənin və ABŞ-ın yüksək texnologiyalı məhsulları ilə təmin olunublar.

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru, millət vəkili Mahir Abbaszadə "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli daim dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir: "Son 15 ildə ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli məqsədilə müxtəlif proqramlar reallaşdırılıb. Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlət başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur.

Bilirsiniz ki, bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu. Bu faktlar bir daha dövlətimizin bu məsələlərə xüsusi diqqətini göstərir. Dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün, dekabrın 27-də isə Sumqayıt şəhərində 1005 qaçqın və məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin uğurlu davamıdır. Qaçqın və məcburi köçkünlər inanırlar ki, Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olunacaq və bu tip quruculuq işləri həmin torpaqlarda aparılacaq".

### Şuşadan olan məcburi köçkünə göstərilən qayğı…

Şuşa rayonundan məcburi köçkün Sevil İbadullayeva bildirdi ki, 1992-ci ildən Xətai rayonu, Cavanşir küçəsi 10A ünvanında yerləşən 1 nömrəli Peşə Məktəbində məskunlaşıblar: "Həyat yoldaşım İlham İbadullayev Laçın rayonundan məcburi köçkündür. Məskunlaşdığımız peşə məktəbində yaşayış üçün şərait yox idi. Xəstəlik mənbəyi olan yer idi. Şükürlər olsun ki, müasir tələblərə cavab verən yaşayış binası ilə təmin olunduq. Cənab Prezidentə, Birinci vitse-prezidentə təşəkkürümüzü bildiririk".

S.İbadullayeva onu da vurğuladı ki, dövlət başçısı məcburi köçkünlərə xüsusi diqqət və qayğı göstərir: "Biz daim Prezidentin qayğısını öz üzərimizdə hiss edirik. Mütəmadi olaraq bizimlə maraqlanır, problemlərimizi şəxsən dinləyir. Prezidentin diqqət və qayğısı sayəsində övladlarımız ali təhsil alıb. Bununla yanaşı, təminatımız da həll olunub. Mənzillə təmin olunmuşuq. Yurd-yuvasından didərgin düşən şəxslərə hər ölkədə mənzil hədiyyə edilmir. Bu bir tək bizim ölkədə tətbiq olunur".

*Günel CƏLİLOVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

# Təhsil Nazirliyinin yeni layihəsi - dərslik müzakirəsinə ictimaiyyəti qoşmağın ən işlək üsulları...

**Dərsliklərin məzmun və keyfiyyətinin yüksək səviyyədə olması əsas məsələlərdən biridir. Son dövrlər dərsliklərin məzmun və keyfiyyəti, eləcə də həcmi ən çox müzakirə edilən, barəsində tənqidi fikirlər, rəylər bildirilən məsələlərdən biridir. Bildiyimiz kimi, şagirdlərin istifadə etdikləri dərsliklərin keyfiyyətinin yüksəldilməsi, məzmununun təkmilləşdirilməsi sahəsində mövcud problemlərin aradan qaldırılması üçün Təhsil Nazirliyi addımlar atır.**




Qeyd edək ki, nazirlik 2018-2019-cu tədris ilində istifadəyə verilən dərsliklərlə də bağlı müzakirə açmışdı. Müzakirə zamanı bildirilirdi ki, dərsliklərin bir çoxunda əvvəlki tədris illərində istifadə edilən dərsliklərdə müşahidə edilən nöqsanların xeyli hissəsi aradan qaldırılsa da, mütəxəssislər hesab edirlər ki, yenə də qüsurlar var.

Təhsil Nazirliyi bu problemin həlli üçün yeni bir addım atıb. Belə ki, nazirlikdə dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsinə başlanıb.

Təhsil Nazirliyi yenidən dərsliklərlə bağlı ictimaiyyətə çağırış edib. Nazirlik təhsil işçiləri, ziyalılar, valideynlər və bütün digər maraqlı tərəfləri dövlət ümumtəhsil müəssisələri üçün hazırlanan dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsi prosesində aktiv iştirak etməyə dəvət edib.

Nazirlikdən mətbuata verilən məlumata görə, 2019-2020-ci tədris ilinə ölkənin dövlət ümumtəhsil müəssisələrinin I sinifləri üçün yeni hazırlanmış, IV və VIII sinifləri üçün isə təkmilləşdirilmiş dərslik layihələrinə dair ictimai rəyin öyrənilməsi prosesi davam edir. 2019-cu ilin aprel ayının ortalarından başlamış proses iyul ayının ortalarına qədər davam edəcək. Hazırda ən çox baxış sayının I sinif "Azərbaycan dili (tədris dili)" dərslik layihəsinə aid olduğu müşahidə edilir. "Nazirlik bir daha alimləri, təhsil işçilərini, ziyalıları, valideynləri və bütün digər maraqlı tərəfləri müzakirəyə çıxarılmış dərslik layihələrinə dair öz arzu, irad və təkliflərini bildirməyə dəvət edir".

**Tanınmış dərslik müəllifi Rafiq İsmayılov hesab edir ki, nazirlik tərəfindən dərsliklərin ictimai müzakirəyə çıxarılması əhəmiyyətlidir və bu öz bəhrəsini verəcək.** Onun sözlərinə görə, bu faktor artıq söz-söhbətlərə, fikir ayrılıqlarına son qoyacaq. "Nazirlik tərəfindən dərsliklərin ictimai müzakirəyə çıxarılması əhəmiyyətlidir və bu öz bəhrəsini verəcək. Düşünürəm ki, dərsliklərlə bağlı ictimai müzakirəyə qoşulanlar məsələyə obyektiv yanaşacaqlar" - deyə R.İsmayılov bildirdi.

**Tanınmış təhsil eksperti Nadir İsrafilov da hesab edir ki, nazirlik tərəfindən dərsliklərin ictimai müzakirəyə çıxarılması olduqca əhəmiyyətli bir işdir və bunun böyük faydası olacaq.**

***Rafiq İsmayılov:*** *"Düşünürəm ki, dərsliklərlə bağlı ictimai müzakirəyə qoşulanlar məsələyə obyektiv yanaşacaqlar"*

***Nadir İsrafilov:*** *"Nazirlik tərəfindən dərsliklərin müzakirəsinin keçirilməsini çox faydalı hesab edirəm"*

"Bu olduqca əhəmiyyətli məsələdir. Bizim dərslik problemi bəlkə də öz həllini çoxdan tapardı. Lakin uzun illərdir bu sahədə problemlər var. Sovet dövründə dərsliklərin bir qismi Moskvada hazırlanırdı. Dəqiq fənlər üzrə dərsliklər orada hazırlanırdı, Azərbaycanda tərcümə edilərək çap olunurdu. Humanitar fənlər üzrə dərsliklər hazırlanırdı. Azərbaycan müstəqillik qazandıqdan sonra isə bütün dərsliklər öz müəlliflərimiz tərəfindən hazırlandı. Bilirsiniz, əvvəllər dərsliklər Azərbaycanın görkəmli alimləri tərəfindən hazırlanırdı. Lakin sonra tender vasitəsilə hazırlanmağa başladı. Dərsliklə bağlı tender elan edilirdi və istənilən adam dərslik hazırlamağa başladı. Tenderin qalibi olan dərslik çap olunurdu. Burada müəyyən məsələlər ortaya çıxdı. Hətta dərslik yazanlar arasında təhsilə aidiyyəti olmayan adamlar da vardı, onlar başqa ixtisas sahibləri idi. Bunun nəticəsində də dərsliklərdə xeyli nöqsanlar üzə çıxmağa başladı. Bu dərsliklərdə yalnız mütəxəssislər, alimlər, müəllimlər deyil, həm də valideynlər, şagirdlər səhvlər tutdular. Bu dərsliklərdə ciddi qüsurlar vardı. O vaxt bu dərsliklərlə bağlı daha ciddi iradlar səsləndirirdilər. Dərsliklərdə jarqonlarla yanaşı, başqa səhvlər də vardı. Bu sahədə nöqsanlar o qədər çoxaldı ki, ölkə başçısı dərsliklərin monitorinqinin keçirilməsi ilə bağlı sərəncam imzaladı. Dərsliklərdəki nöqsanların aradan qaldırılması üçün nazirlik tərəfindən son illər mütərəqqi addımlar atılır. Deyək ki, artıq nazirliyin Təhsil Problemləri İnstitutunda dərsliklərlə bağlı xüsusi şöbə yaradıldı, ehtiyat dərsliklərin hazırlanmasına başlandı. Təhsil Nazirliyinin yeni tədris ili üçün dərsliklərin ictimai müzakirəsinin keçirilməsi təşəbbüsü çox müsbət haldır. Artıq nazirlikdə dərsliklərlə bağlı xüsusi sayt yaradılıb və vətəndaşlar, alimlər, ictimaiyyət nümayəndələri çox rahat şəkildə dərsliklərlə barədə öz fikir və təkliflərini o sayta ünvanlayacaq. Bu, dərsliklərin növbəti nəşrində nəzərə alınacaq. Bu çox vacib məsələdir. Bilirsiniz ki, Prezident İlham Əliyev tərəfindən ictimai iştirakçılıqla bağlı qanun imzalanıb. Dərslik müzakirəsində ekspertlər, QHT-lər, alimlər, media nümayəndələri aktiv iştirak etməlidirlər. Nazirlik tərəfindən dərsliklərin müzakirəsinin keçirilməsini çox faydalı hesab edirəm və bu proses nə qədər davam etsə, o qədər də bizim dərsliklərimiz təkmil, məqsədəmüvafiq şəkildə nəşr olunar" - deyə N.İsrafilov qeyd etdi.

***İradə SARIYEVA***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BALAYEV RAZİ ŞAHMAR oğlu**



20 oktyabr 1963-cü ildə Azərbaycan Respublikası Füzuli rayonunun Şükürbəyli kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Suraxanı rayonunda yaşamışdır. Suraxanı RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Balayev Razi Şahmar oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 11 yanvar 1994-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balayev Razi Şahmar oğlu 11 yanvar 1994-cü il tarixində Ağdərə rayonunun Akop-Kamarı (indi Lüləsaz) kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Balayev Razi Şahmar oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BALAZAHİROV MİKAYIL AĞAYUSİF oğlu**



5 may 1971-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Əzizbəyov (indi Xəzər) rayonunda yaşamışdır. Xəzər RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Balazahirov Mikayıl Ağayusif oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 7 sentyabr 1992-ci ildə Füzuli rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balazahirov Mikayıl Ağayusif oğlu 7 sentyabr 1992-ci il tarixində Füzuli rayonunun Qacar kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı yaralı vəziyyətdə döyüş bölgəsində qalaraq naməlum şəraitdə itkin düşmüşdür və onun erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürüldüyü ehtimal olunur.

Balazahirov Mikayıl Ağayusif oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BALMAQAMBETOV ALEKSANDR QARİFULLAYEVİÇ**



12 mart 1961-ci ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Nərimanov rayonunda yaşamışdır. Nərimanov RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Balmaqambetov Aleksandr Qarifullayeviç Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 17 yanvar 1994-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Balmaqambetov Aleksandr Qarifullayeviç 17 yanvar 1994-cü il tarixində Ağdərə rayonunun Madagiz kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Balmaqambetov Aleksandr Qarifullayeviçin sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Şəmkirdə ehsan əvəzinə küçələri təmir etdirənə necə baxdılar...

**Azərbaycanda yas mərasimlərinin aşırı israfçılıqla keçirilməsi məlumdur. Bu hal o qədər geniş yayılıb ki, onun qarşısını nə maarifləndirici tədbirlər, nə də digər üsullarla almaq müşkülə çevrilib. Yas mərasimlərinin bu cür təşkil edilməsinin qarşısının alınması üçün az da olsa müəyyən nümunələr ortaya qoyanlar var.**



*İsmayıl Əhməd: "Bu addımı atan adamlar ümumi rifaha xidmət etdiyindən, bunu yalnız dəstəkləmək və təbliğ etmək lazımdır"*

*Hacı Təyyar Hüseynli: "Dünyasını dəyişənlərin övladları yol çəkdirirlərsə, bu da müsbət haldır"*

Doğrudur, yeni nümunələr cəmiyyət tərəfindən elə də yaxşı qarşılanmır, buna birmənalı yanaşma yoxdur. Ancaq təqdim edilən bəzi nümunələrin israfçılığın qarşısının alınmasında optimal vasitə olduğu diqqətdən yayınmır.

Cəmiyyətimizdə elə tendensiyalar var ki, onların yayılması, inkişaf etdirilməsi, daha çox tətbiq edilməsi zəruridir. Yas mərasimlərində bolluca ehsan verməkdənsə, tox qarınları yenidən doydurmaqdansa, xeyriyyə işləri görmək daha vacibdir.

Mətbuatın yazdığına görə, Şəmkir sakini olduqca xeyirli, faydalı bir nümunə ortaya qoyub. Belə ki, bu günlərdə Şəmkirin Dəllər Cəyir kəndində vəfat edən Məmmədov Zöhrab Yaqub oğlunun yaxınları mərhumun ehsanı əvəzinə, kənd sakinləri üçün xeyriyyə işləri həyata keçiriblər. Məlumatlara görə, Dəllər Cəyir kənd İƏD-si üzrə nümayəndəliyinin təşkilatçılığı ilə kəndin mərkəzi küçəsi və mərkəzi küçənin ətrafında iki küçə qumçınqıl tökülərək təmir edilib, kənd sakinlərinin istifadəsinə verilib.

Şəmkir Rayon İcra Hakimiyyətindən verilən məlumata görə, kənd sakinləri Şəmkir rayonunda belə bir təşəbbüsü irəli çəkdiyi üçün rayon rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Şəmkir sakininin ehsan əvəzinə yolları təmir etdirməsinə ekspertlər necə baxırlar? Onun bu hərəkəti ehsan sayıla bilərmi?

**Tanınmış ilahiyyatçı İsmayıl Əhməd "Bakı-Xəbər"ə bildirdi ki, Şəmkir sakininin atdığı bu addım olduqca müsbət nümunədir və bu örnək cəmiyyətdə geniş yayılmalıdır:** "Bu ənənəni yalnız alqışlamaq olar. Ehsan məclislərində israfçılığa çox yer verilir. Ümumiyyətlə, ehsan məclislərində iştirak edən insanların 90 % kifayət qədər imkanlı şəxslər olur. Amma bu addımı atan adamlar ümumi rifaha xidmət etdiyindən, bunu yalnız dəstəkləmək və təbliğ etmək lazımdır".

**İlahiyyatçı Hacı Təyyar Hüseynlinin fikrincə, əslində, ehsan sözünün mənası yaxşı iş deməkdir.** Sözün etimiologiyasının "həsənə" sözündən olduğunu deyən H.T.Hüseynli qeyd edir ki, bu, hər mənada bəyənilən bir iş deməkdir. "Sözün mənasını bir az da açıqlasaq, bu, gözəllik deməkdir. Həsən sözünü də bura aid etmək olar. Qaldı ki, dünyasını dəyişənlərlə bağlı ehsanların verilməsinə, bu barədə bir çox mülahizə var. Bəziləri deyirlər ki, vəfat edən şəxsin hüzn xəbərini eşidib o ailəyə, ocağa, ünvana gələnlərə süfrə ikram olunur. Yas sahibinə dəstək olan, saatlarla orada oturan insanlara süfrə açılır. Əslində, bu gözəllikdir, bizim dini-mənəvi mədəniyyətimizdir. Bu insansevərlikdir, qarşılıqlı qayğı və duyğudur. Ancaq bəziləri deyirlər ki, ehsan süfrələrinə xərclənən məsrəfi digər yaxşı işlərə yönəltmək lazımdır. Yəni ölü sahibləri süfrə açmaq əvəzinə, yol çəkdirsin, su çəkdirsin və s. Bunların hamısı bir-birindən fərqləndirilmədən yaxşı işlərdir. Onu əlaqələndirirlər ki, insanların bəzilərinin maddi durumu yas məclisləri keçirməyə adekvat deyil. Elə insanlar var ki, onların maddi gücü yüzlərlə insanı qarşılamağa çatmır. İnsan da var ki, qınaqla üzləşməmək, başqaları ilə ayaqlaşmaq üçün xərcə-borca girir".

H.T.Hüseynli bildirdi ki, Abşeronun bəzi kəndlərində yas mərasimləri ilə bağlı yeni tendensiyalar mövcuddur. Onun sözlərinə görə, burada toy və yas məclislərində süfrələr sadələşdirilib. Ehsan verməmənin şəxsi məsələ olduğunu deyən müsahimiz hesab edir ki, hər bir insan öz büdcəsinə uyğun şəkildə yas mərsimi keçirir. Azərbaycan xalqının xarakterində yardımlaşma amilinin olduğunu qeyd edən ekspertin sözlərinə görə, qarşılıqlı yardımlaşma ilə süfrələrin açılması daha yaxşıdır. "Bundan əlavə, dünyasını dəyişənlərin övladları yol və su çəkdirirlərsə, bu da müsbət haldır. İnsan sağlığında da elobasına, xalqına xeyir verə bilər" - deyə müsahibimiz qeyd etdi.

***İradə SARIYEVA***

# Çimərliklərə və akvaparklara giriş xeyli bahalaşdırıldı...

**Yayın qızmar istisində sərinlənmək istəyənlərin bir qismi dəniz kənarına üz tutur. Dəniz kənarına gedəndə hamı çalışır ki, büdcəsinə uyğun istirahət mərkəzində və ya ictimai çimərlik deyilən (açıq ərazilər) ərazilərdə istirahət etsin. Kimi pulsuz açıq ərazilərə üstünlük verir, kimi istirahət mərkəzlərinə.**



*İlqar Hüseynli: "Sahibkarlar bazar iqtisadiyyatını bəhanə edib çimərliyə giriş üçün müəyyən məbləğdə pul tələb edirlər"*

Ancaq müşahidələr onu göstərir ki, azacıq öz sağlamlığının qayğısına qalan şəxslər ictimai çimərliyə getmirlər. Səbəb isə göz önündədir. İctimai çimərliklər orada istirahət edən şəxslər tərəfindən zibillənir və müvafiq qurumlar tərəfindən çox gec təmizlənir. Pullu istirahət mərkəzləri isə bir çox insanın büdcəsinə görə deyil.

Dəniz mövsümü açılan kimi çimərliklərə və akvaparklara giriş haqqı qaldırılıb. Məlumatlara görə, Mərdəkan, Novxanı, Nardaran və Bilgəhdə dəniz sahilində yerləşən əksər istirahət mərkəzləri qiymətləri 5 manat artırıblar. Məsələn, böyüklər üçün qiymətlər həftəiçi üzrə 15 manatdan 20 manata, həftəsonu üzrə 20 manatdan 25 manata qaldırılıb. Qeyd edək ki, istirahət mərkəzləri yaşı 12-dən yuxarı şəxsləri böyük kateqoriyasına daxil edirlər.

6-12 yaş aralığında olan uşaqlar üçün isə qiymətlər, istirahət mərkəzindən asılı olaraq, 10 manatdan 15 və 20 manata qaldırılıb.

İstirahətə ailəvi getməyi nəzərdə tutanlar qiymət artımından məyus olublar. İndi 2 böyük və uşaqdan ibarət 4 nəfərlik ailənin həftəsonu hovuzlara və akvaparklara girişi 90 manata başa gəlir. Nahar da nəzərə alındıqda qiymət 130-150 manatadək qalxır. Yay fəslində Azərbaycanda 10 dəfə hovuzlara və akvaparklara getmək istəyən ailələr azı 1300 manat xərcləməli olacaqlar.

Çimərliklərə, istirahət mərkəzlərindəki aquaparklara giriş haqqının qaldırılması ölkə ictimaiyyəti tərəfindən xoş qarşılanmır.

**Sosial sahə üzrə ekspert İlqar Hüseynli qeyd etdi ki, Azərbaycandakı istirahət mərkəzlərindəki qiymətlər orta əməkhaqqı səviyyəsində 500 manat gəliri olan insanların istirahəti üçün çox bahadır:** "Türkiyədə, Gürcüstanda olduğu kimi, ölkəmizdə də təkcə varlılar üçün yox, imkanı aşağı olanlar üçün də şərait yaradılmalıdır. Digər sahələrdə olduğu kimi, bu sahədə də rəqabət mühiti yaradılmalıdır. Elə rəqabət mühiti yaranmalıdır ki, sahibkarlar süni qiymət artımına çox aludə olmasınlar".

*"Digər sahələrdə olduğu kimi, dəniz mövsümündə də elə rəqabət mühiti yaradılmalıdır ki, sahibkarlar süni qiymət artımına çox aludə olmasınlar"*

Həmsöhbətimiz onu da vurğuladı ki, bazar iqtisadiyyatı bütün sahilin pullu olması demək deyil: "Çimərliklərdə şlaqbaum quraşdıraraq camaatı pulsuz içəri buraxmırlar. Hər çimərlik, istirahət mərkəzi özünə uyğun qiymət təyin edib. Sahibkarlar bazar iqtisadiyyatını bəhanə edib nə istəyirlərsə, onu edirlər".

Ekspertin sözlərinə görə, yay fəslində vətəndaşların Xəzərin sahilində sərbəst istirahəti artıq mümkün deyil. Çünki vətəndaşların çimərliyə daxil olması üçün ondan müəyyən məbləğdə pul tələb olunur: "Hətta uşağın girişi üçün də xüsusi məbləğ müəyyən ediblər. Ancaq sahibkarlar Prezidentin Xəzərin sahilində vətəndaşların rahat şəkildə istirahəti üçün heç bir maneə olmaması haqqında bəyanatını unudurlar. Sərəncamda qeyd olunurdu ki, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində tikinti, yaxud hasarlama işləri aparıla bilməz. Ancaq bəzi işbazlar Prezidentin məlum göstərişinə əhəmiyyət verməyərək yenə də öz bildiklərini edirlər".

***Günel CƏLİLOVA***

№ 111 (4009) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

26-27 İYUN 2019-cu il




## Bu yay "Samsung" smartfonu vә hәdiyyәlәr "Azercell"dәn!

**Fәaliyyәtinin yeni rәqәmsal dövrünә qәdәm qoyan ölkәnin telekommunikasiya sahәsinin lideri "Azercell" abunәçilәrini әn sәrfәli kampaniyaları ilә sevindirmәyә davam edir.**

Bu dәfә müştәrilәrini dinamik telekom bazarının әn son trendlәrinә uyğun smartfonlar ilә tәmin etmәyi hәdәflәyәn şirkәt, iyun ayının 21-dәn iyul ayının 31-dәk xüsusi kampaniya tәqdim edir. Belә ki, Fakturasız Xәtt abunәçilәri "Azercell"dәn "Samsung" smartfonu alıb, ödәnilәn mәblәğin 150 manatadәk dәyәrini keşbәk almaq fürsәtini әldә edirlәr. Fakturalı xәtt abunәçilәrinә isә yeni smartfonlarında internet istifadәsini daha da әlçatan etmәk mәqsәdilә, "Azercell" 6 ay әrzindә aylıq 10GB hәcmindә mobil internet paketini nömrәnin balansına hәdiyyә edir.

Bizim ilә rәqәmsal dünyanın әn son yenilikləri yeni smartfonunuzda daha әlçatan olacaq! Tәtilinizin әn maraqlı anlarını "Azercell"dәn yeni "Samsung" smartfonunuz ilә unudulmaz edin!

Əlavә mәlumat üçün https://www.azercell.com/az/personal/campaigns/monthly/150azngift/ sәhifәsinә daxil olun.

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

Şәki rayonu, Baş Zәyzid kәnd sakini Nәsibov Əfsәr Qurban oğlunun adına verilmiş ev qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Qax rayonu, Ağyazı kәnd sakini Abdullayev Orxan Mahmud oğlunun adına verilmiş hәrbi qulluqçunun şәxsi vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Namazova Sәbinә Nizami qızının adına, Bakı şәhәri, Yasamal rayonu, Tbilisi pr. mәhәllә 3166, mәnzil 135 A ünvanına (seriya RX № 1262153) verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Mәmmәdov Sәrdar Sabir oğluna mәxsus, Bakı şәhәri Xәzәr rayonu, Mәrdәkan qәsәbәsindә yerlәşәn № 3 "E" bağın № 329 orderi itdiyi üçün etibarsız sayılır.

Babayev Fariq Tofiq oğluna Lәnkәran DYPİ tәrәfindәn verilmiş sürücülük vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Qәnbәrov Rasim Canәli oğlunun adına, Bakı şәhәri, Sәbail rayonu, Badamdar qәsәbәsi, 1-ci yaşayış sahәsindә yerlәşәn ünvana 04.03.2002-ci il tarixdә verilmiş torpaq sahәsinin mülkiyyәt hüququna dair şәhadәtnamә (JN-2291H) itdiyi üçün etibarsız sayılır.

## "Nar"ın eşitmә mәhdudiyyәtli insanlar üçün peşә tәlimlәri davam edir

**Fiziki mәhdudiyyәtli insanların cәmiyyәtә inteqrasiyasına hәr zaman xüsusi diqqәt ayıran "Nar"ın dәstәyi ilә keçirilәn "Tәlim Mәktәbi" layihәsinin ikinci mәrhәlәsi başa çatıb.**

Belә ki, 15 nәfәrlik qrup intensiv aşpazlıq tәlimini başa vuraraq, bu peşәnin incәliklәrinә yiyәlәniblәr. "Karlara Dәstәk" İctimai Birliyi ilә birgә reallaşdırılan layihә çәrçivәsindә artıq son tәlim mәrhәlәsinә dә start verilib. Öncәdәn aparılan sorğu әsasında iştirakçıların marağına uyğun olaraq seçilәn motorçu peşә tәlimi öz işinә başlayıb.

Motorçu tәliminin özәlliyi ondan ibarәtdir ki, tәlimçi 3-cü qrup eşitmә mәhdudiyyәti olan vә artıq 12 ildir ki, avtomobil ustası çalışan BәhrәmHüseynovdur. Onun sözlәrinә görә, avtomobilin tәmiri zamanı bәzәn sәslәri duymağa ehtiyac olsa da, güclü intuisiya qabiliyyәti ilә işin öhdәsindәn asanlıqla gәlmәk mümkündür. Qeyd edәk ki, "Nar" tәrәfindәn tәşkil edilәn "Tәlim mәktәbi" layihәsi eşitmә mәhdudiyyәti olan insanların peşә sahibi olmaqlacәmiyyәtә inteqrasiyasınadәstәk mәqsәdilә keçirilir. Bu layihә eşitmә mәhdudiyyәtli insanların işlә tәmin olunmasına da yardım edәcәk.Peşә tәlimi ilkin olaraq paytaxt Bakıda start götürüb. Gәlәcәkdә isә bölgәlәrdә dә "Tәlim mәktәbi" layihәsinin davam etdirilmәsi planlaşdırılır. "Nar" 4 ilә yaxındır ki, eşitmә mәhdudiyyәtli insanlar üçün bu cür tәlimlәr tәşkil etmәklә, onların müxtәlif peşәyә yiyәlәnmәsinә vә iş bacarıqlarının artmasına töhfә verir. Fiziki mәhdudiyyәtli insanlara dәstәk vә onların cәmiyyәtә inteqrasiyası "Nar"ın korporativ sosial mәsuliyyәt (KSM) strategiyasının әsas istiqamәtlәrindәn biridir.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7500-dәn artıq baza stansiyası ilә 2,3 milyondan çox abunәçiyә yüksәkkeyfiyyәtli xidmәt göstәrir.

## "Nar" 4G istifadәçilәrinin sayı 700 minә çatıb

**Ölkәnin әn geniş 4G şәbәkәlәrindәn birinә malik olan "Nar"ın 4G istifadәçilәrinin sayı sürәtlә artmaqdadır. Son 1 il әrzindә "Nar" 4G internetindәn istifadә edәnlәrin sayı 2 dәfә artaraq 700 minә çatıb.**

Mobil operatorun 4G istifadәçilәrinin sayının artmasına ölkә әrazisindә yeni baza stansiyalarının quraşdırılması, "Nar"ın tәqdim etdiyi paketlәr vә tariflәr, elәcәdә 4G smartfon penetrasiyasının artımı tәsir edib. Qeyd edәk ki, son 1 il әrzindә "Nar"ın smartfon istifadәçilәrinin sayı 23% artıb.

"Nar"yüksәkkeyfiyyәtli 4G xidmәtini paytaxtla yanaşı, bölgәlәrdә, şәhәr vә rayon mәrkәzlәrindә dә tәqdim etmәkdәdir. "Nar" 4G istifadәçilәrinin 71%-i paytaxt Bakının, 29%-i isә regionların payına düşür. Ötәn ilin müvafiq dövrü ilә müqayisәdә 4G internetindәn istifadә edәnlәrin sayı Bakıda 91%, regionlarda isә 120% artıb. Ümumilikdә, "Nar" abunәçilәrinin 25%-i yüksәksürәtli 4G internetinin istifadәçisidir. Hazırda "Nar" istifadәçilәrinin sayı 2,3 milyonu ötüb.

Mobil operatorun şәbәkәsi haqqında әtraflı mәlumatı nar.az saytından әldә edә bilәrsiniz. "Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib. "Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib. "Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7400-dәn artıq baza stansiyası ilә abunәçilәrә yüksәk keyfiyyәtli xidmәt göstәrir.





**Qoç** - Ən adi, rutin mәsәlәlәrin hәllindә ekstravaqant çözüm yollarından yararlansanız, problemlәrin öhdәsindәn gәlәcәksiniz. Maliyyә mәsәlәlәri, sәrmayә layihәlәri üçün әlverişli zamandır.



**Buğa** - Qarışıq, mürәkkәb zamandır. Astagәl olmayın, sürәtlә hәrәkәt edin. Xәbәrlәri dinlәyin, gәlәn mәlumatları saf-çürük edin, hadisәlәrә tәsir imkanlarına malik insanlarla görüşün.



**Əkizlәr** - Yorucu, usandırıcı, rutin işlәrlә dolu gündür. Yaxın әtrafınızdakı insanlar sizinlә bağlı bәlli gözlәntilәrә malikdirlәr. İşlәrin öhdәsindәn gәlә bilmәdiyinizi anlayırsınızsa, dostlara yardım üçün müraciәt edin.



**Xәrçәng** - Ətrafınızdakı vurnuxmanın adi elementinә çevrilmәyin. Plan çәrçivәsindә hәrәkәt edin. Öhdәlik vә vәdlәrinizi unutmayın. Etibar etdiyiniz insanların gözlәntilәrini aldatmayın.



**Şir** - Ehtiyatlı olun. Sizi iradәnizә zidd olaraq avantüraya cәlb edә bilәrlәr. Pullarınızı yanlış yatırma riski var. Sәrfәli olmayan alışlar etmәyin. Gәrәkli işlә mәşğul olun. Ciddi qüvvә vә vaxt alan mәhğuliyyәti unudun.



**Qız** - Yaşamın müәyyәn tәfәrrüatlarına diqqәt yetirin. Narahatlıq, uğursuz şәrtlәr istisna deyil. İşgüzar aktivliyiniz ifrata varmamalıdır. Bir müddәt fasilә edin. Yaxın gәlәcәklә bağlı planlarda dәyişikliklәr zamanıdır.



**Tәrәzi** - Xәrclәrinizi artırmayın. Yaxınlarınızdan qayğınızı әsirgәmәyin. Sürәtlә inkişaf edәn prosesi donuq nәzәrlәrlә seyr etmәyin. Dәyәr verdiyiniz insanın maraqlarını nәzәrә alın. Yaxşılıq müqabilindә heç nә gözlәmәyin.



**Əqrәb** - İstәdiyinizdәn artıq vaxtı ünsiyyәtә sәrf etmәli olacaqsınız. Qarşılıqlı әlaqәlәrin, tәmasların bir neçә kanalını nәzarәtdә saxlayın. Yaxın әtrafınızdakı insanların sizinlә bağlı ifrat gözlәntilәri var.



**Oxatan** - Günün ilk yarısında yaşananları laqeyd, süst şәkildә seyr etmәyin. Aktiv olun, әtrafınızdakı insanlara fikir verin. Dәyәr verdiyiniz şәxsә tәzyiq göstәrmәyә çalışmayın.



**Oğlaq** - İstәklәrinizә nәzarәt edin. Praktik olun, durumu normal qiymәtlәndirin. Alış-veriş üçün әlverişli zaman deyil. Bir müddәt sonra cazibәsini vә aktuallığını itirәcәk әşyaya çox pul vermәyin.



**Dolça** - Hәyәcan vә emosiyaların bol olacağı gündür. Artıq söz demәmәk üçün özünüzü әlә alın. Bәdxahlar, sizә qarşı mәkrli davranan rәqiblәr durumdan istifadә edә bilәrlәr. Ünsiyyәt çevrәsini yanlış seçmәyin.



**Balıqlar** - Dostlardan birinin davranışı vә sözlәri sizi tәәccüblәndirәcәk. Bu adam sizdәn faydalanmaq, vәziyyәtdәn sui-istifadә etmәk istәyir. İşdә hәmkarlarınızla normal davranın.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Saç telindәn stress analizi edildi

**Yaponiya tәdqiqatçılardan ibarәt bir qrup, sadәcә bir neçә saç teli istifadә edәrәk, insanların stress sәviyyәlәrini ölçәn bir üsul yaraıb.**

"Sputnik" xәbәr verir ki, Şiqa Universitetinin tәhsil fakültәsinin dosent doktoru kimi fәaliyyәt göstәrәn vә tibb sahәsindә işlәyәn Masako Ohiranın rәhbәrlik etdiyi qrup, insan orqanizmindәki stress dәrәcәsini saç telindәn ölçә bilir. İnsan orqanizminin stress hiss etdikdә bir hormon ifraz etdiyini vә saçların bu hormonu saxlamağa meyilli olduğunu müәyyәn edәn qrup, hormonu xüsusi bir kimyәvi maddә istifadә edәrәk, uğurla laboratoriya şәraitinә yerlәşdiriblәr vә müvazinәtlәrini ölçüblәr. Bundan sonra qrup, kәşf etdiklәri metodla aylıq bir santimetrelik saç böyümә sürәtinә әsaslanaraq, 6 ay әvvәlә qәdәr insanların nә vaxt, vә nә qәdәr stress keçirdiyini müәyyәn edәcәklәrini deyir. Əldә edilәn tapıntıların stress yoxlamalarını asanlaşdıracağına ümid edәn qrupun uzun müddәtli hәdәfi isә, iş yerlәrindәki stressin azaldılması işinә kәşf etdiklәri üsulla dәstәk vermәkdir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.